

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 16 (24.451)

*26 aprel 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Strateji tərəfdaşlığın hərtərəflilik prinsipinə əsaslanan yeni mərhələsi



Cənubi Qafqazın lideri Azərbaycanla dünyanın iqtisadi cəhətdən ikinci güclü dövləti Çin arasında qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlər son illərdə yüksələn xətlə inkişaf edir, dünya siyasi, iqtisadi sistemində əhəmiyyətini xeyli gücləndirir, təsir dairəsini genişləndirir. Prezident İlham Əliyevin aprelin 22-də Çin Xalq Respublikasına səfəri, ertəsi gün keçirilən görüşlər, imzalanan sənədlər, xüsusilə də hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat bu tərəfdaşlığı yeni mərhələyə yüksəltdi, əməkdaşlıqların dərinləşməsi yolunda mühüm perspektivlər açdı.

Azərbaycanla Çin arasında diplomatik əlaqələr 33 il əvvəl, daha dəqiq desək, 1992-ci il aprel ayının 2-də qurulub. Qeyd etdiyimiz kimi, son illərdə ölkələrarası münasibətlər yüksək inkişaf yoluna qədəm qoyub, müxtəlifsəviyyəli işgüzar səfərlər zamanı yeni əməkdaşlıq istiqamətləri müəyyənləşib. Bu baxımdan Azərbaycan-Çin əlaqələrində diplomatik münasibətlərin 32-ci ildönümünü, 2024-cü ili müstəsna əhəmiyyətli dövr kimi xarakterizə etmək olar. Belə ki, ötən il iyulun 3-də imzalanan Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə ölkələrarası qarşılıqlı etimadın və əməkdaşlığın təməlləri daha da möhkəmləndirilib, dünya iqtisadi sisteminin mənzərəsini dəyişdirə biləcək vacib strateji hədəflər müəyyənləşdirilib. Aprelin 23-də Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində liderlər arasında imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə hər iki ölkənin bir-biri üçün prioritet təşkil edən sahələri etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiqləməklə bu tərəfdaşlığı yeni, daha yüksək mərhələyə daşıdı. Tərəflər qarşılıqlı siyasi etimadı daim möhkəmləndirmək, qarşılıqlı dəstəyi gücləndirmək, hər iki ölkə xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər.

Səhifə ⇨ 3

## Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət-media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası ilə birlikdə yubiley tədbirlərinin keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yubiley tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2025-ci il*

Nurlu şəxsiyyət, şəfqətli həkim 2
Naxçıvan-Urumçi qardaşlığı: regional əməkdaşlığın yeni strateji müstəvisi 5
Burada gələcəyin Arximedləri, Pifaqorları, Nyutonları yetişir 9
Əbədi sənət karvanı 10
Sorağı əsrlərin o tayından gələn kənd 11



# Nurlu şəxsiyyət, şəfqətli həkim

**Prezident İlham ƏLİYEV:** *"...Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir".*



Akademik Zərifə xanım Əliyevanın şərəf və ləyaqətlə yaşanmış ömür yoluna nəzər yetirdikcə gözlərimiz önündə nəcib insan, görkəmli alim, xalqını, Vətənini dərin məhəbbətlə sevən, ailəsinə sədaqət rəmzi olan zərif bir qadın obrazı canlanır. Hər zaman yurdsevər soydaşlarımızın, onunla birgə çalışmış elm xadimlərinin, şəfa verdiyi insanların yaddaşlarında yaşayan görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyeva minlərlə insana gözəl dünyamızı görmək sevinci bəxş edirdi. Həyata gəlişi bahara təsadüf edən Zərifə xanım Əliyeva ən böyük ziyalı kimi həmişə adını uca tutduğu Azərbaycan xalqının, bütün elm və tibb ictimaiyyətinin yaddaşına əbədi həkk olunub.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən bir daha bu dahi insanın hərtərəfli şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın pak və nadir bir insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim, həkim üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb, yazılacaq. Çünki Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə Əliyeva xalqımız üçün çox dəyərlidir. Gözlərə və könüllərə işıq paylayan bir şəxsiyyətin xatirəsi hər kəs üçün əzizdir. Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şahtaxtı kəndində görkəmli alim, nüfuzlu dövlət xadimi Əziz Əliyevin ailəsində doğulub. Zərifə xanım 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, 1982-1985-ci illərdə Oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışıb.

***"... Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir".*** Tanrının dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan biri kimi akademik Zərifə Əziz qızı Əliyeva haqqında oğlu, Prezident cənab İlham Əliyevin kövrək hisslərlə dilə gətirdiyi fikirlərində də bunu görürük. Bu zərif qadın əsl alim ömrü yaşamış, həyatını peşəsinin sirlərini dərindən öyrənməyə həsr etmişdi. Amma onun yaşam fəlsəfəsinin əsasını, heç şübhəsiz, yurduna, torpağına bağlılıq, vətəndaşlıq mövqeyi təşkil edirdi. Bütün mənalı fəaliyyətinin təməlində də bu amillər dayanırdı.

Akademik Zərifə xanım Əliyevanın elmi dünyasına baxsaq, təəccüblənməyə bilmərik. Qısa və şərəflə yaşanmış bu ömürdə nələr yoxdur ki... 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifi olan alimin gənc nəslin təlim-tərbiyəsində, yüksəksəviyyəli həkim-oftalmoloqların yetişdirilməsində də xidmətləri əvəzsizdir. O, onlarla elmlər doktorunun rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmış, oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. O həmin mükafata layiq görülən ilk qadın alim idi.

Qürurvericidir ki, dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında yüksək fikirlər söyləmişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı *"oftalmologiyanın mirvarisi"* adlandırırdı. Dünyaşöhrətli oftalmoloq, akademik A.Nesterov demişdir: *"Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi".* Professor K.Trutneva *"Zərifə xanım, hər şeydən əvvəl, görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqdurmu?! O eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik, yüksək təşkilatçılıq bacarığının olması da vacibdir. Məhz bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi".* Sözsüz ki, hər birimizin qəlbində özünə yer qazanmış bu Azərbaycan qadını haqqında deyilən belə yüksək fikirlər Zərifə xanım Əliyevanın xarakter cizgiləridir, onu yüksəkliyə qaldıran, tanıdan amillərdir.

Bu baxımdan Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M. Krasnovun xatirələri Zərifə xanım Əliyevanı tanımayanlar, görməyənlər üçün bir ensiklopediyadır. *"Zərifə xanım elə güclü şəxsiyyət idi ki, mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki,Zərifə xanım ona üz tutanların hamısına imkanı daxilində kömək etməyə hazırdır... İnsani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, adamlarla dil tapmaq qabiliyyəti ictimai işdə də Zərifə xanımın (üstəlik, o, böyük ictimai xadim idi) əlindən tuturdu. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur".*

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva! Bu adlar qoşa çəkiləndə iki şəxsiyyətin bir-birinə olan sevgisindən yaranan məhəbbət dastanı, qarşılıqlı sevgi üzərində qurulan çox gözəl bir ailə nümunəsi göz önünə gəlir. Onları bir-birinə bağlayan əbədi eşq nəsillərə örnək idi. Sadəliyi, nəcibliyi, mehribanlığı ilə yaddaqalan Zərifə xanım Ulu Öndərin təkcə həyat yoldaşı deyildi. Bu cəfakeş qadın həm də Ümummilli Liderimizin dostu, sirdaşı, eyni zamanda onunla çiyin-çiyinə dayanaraq öz ömür-gün yoldaşına mənəvi dayaq idi. Fəxri adları, elmi titulları, mükafatları çox olan Zərifə xanıma taleyin verdiyi bir qabiliyyət idi ki, o bunu da bacarırdı. Bacarırdı ki, xalqımız, dövlətimiz üçün iki övlad böyütdü. Öz valideynlərinin yolunu şərəflə davam etdirən, ata-analarına başucalığı gətirən övladlar...

Akademik, Əməkdar elm xadimi, M.İ. Averbax adına mükafatın laureatı... Hər biri qürur, iftixar mənbəyi olan bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident cənab İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq deyir: ***"Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".***

Qəlbimizi ağrıdan, göynədən odur ki, ömür-gün yoldaşının min bir əzabla qurub-yaratdığı, bu gün hakimiyyət sükanı arxasında oğlunun böyük siyasi iradə ilə dayandığı və daha parlaq gələcəyə uğurla apardığı müstəqil Azərbaycanımızın bu gününü görə bilmədi Zərifə xanım. Ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də dünyasını dəyişdi, əbədiyyətə qovuşdu, Azərbaycan adlı bir məmləkəti hər cür təqiblərdən qoruyan, bu torpağa qol-qanad verən, onu bütün dünyaya tanıdan bir İnsanı tək qoyub getdi. Ulu Öndərimiz həyatı qədər sevdiyi Zərifə xanımı itirdi, onun yoxluğu ilə heç cür barışa bilmədi. Ümummilli Lider Heydər Əliyev deyirdi: ***"Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır".***

Bu gün Zərifə xanımın ruhu şaddır. Azərbaycan xalqına tarixinin ən şanlı zəfərini bəxş edən İlham Əliyev kimi oğul böyütdüyü üçün! Qalib xalqın Qalib Lideri İlham Əliyevin Şuşada dalğalandırdığı Zəfər bayrağı xalqımızın qəlbini xoşbəxtlik hissi ilə qürurlandırır. Artıq torpaqlarımızın 30 illik işğalına son qoyulub, bir zamanlar yalnız top-tüfəng səsləri gələn Qarabağdan indi quruculuğun xoş sədaları yüksəlir. Bu tarixi və şərəfli missiyanı Zərifə xanımın oğlu ata vəsiyyətini yerinə yetirərək həyata keçirir.

Bu gün Ulu Öndər Heydər Əliyevin başladığı böyük quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində Azərbaycan söz sahibi olmuş və dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilmişdir. Zərifə xanımın qəlbinin hərarətini verdiyi ailə ocağı bu gün də gur yanır, onun şöləsi bütün Azərbaycana yayılıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qoruduqları bu ocağın nuru Vətənimizin və xalqımızın xoşbəxt gələcəyinə gedən yolu aydınladır.

Həyatda şərəfli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, xeyirxah işləri daim xatırlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların mənalı ömürləri gələcək nəsillərə örnək, nümunə olur. Bu həyatda yalnız yaxşılığın əbədi olduğunu və bunu həyat amalına çevirən Zərifə xanım Əliyeva kimi. Prezident cənab İlham Əliyev kövrək hisslərlə bu haqda deyir: ***"Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı idi. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi".***

Zərifə xanımın həyat amalı məhz bu idi. İnsanlara yaxşılıq etmək. Bu iki amal uğrunda ömrünü şam kimi əridirdi, ölüm belə onu qorxutmurdu. Çünki bu dünyada yalnız yaxşılığın əbədi olduğunu bilirdi nurlu şəxsiyyət, şəfqətli həkim, akademik Zərifə xanım Əliyeva.

**Məhəbbət MİRZƏYEVA**

# Strateji tərəfdaşlığın hərtərəflilik prinsipinə əsaslanan yeni mərhələsi



*(əvvəli 1-ci səhifədə)*

Ölkələrin bir-birinin ərazi bütövlüyü və suverenliyini qəti şəkildə dəstəklədiklərinin əyani ifadəsinə çevrilən Birgə Bəyanatın müddəaları sırasında diqqətçəkən məqamlardan biri də turizm potensialının yüksəldilməsinə xidmət edən və çoxdan gözlənilən addımın atılması idi. Belə ki, liderlər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirərək bütün sahələrdə əlaqələrin və əməkdaşlığın aktivləşdirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Sazişin razılaşdırılmasını və imzalanmasını alqışladılar. Vizanın ləğvi, təbii olaraq, insanların gediş-gəlişini asanlaşdırmaqla qeyd etdiyimiz kimi, ilk növbədə, turizmin inkişafına, eyni zamanda mədəni əlaqələrin, sahibkarlar arasında dialoqun gücləndirilməsinə, humanitar, təhsil sahələrində uğurlu əməkdaşlığa təkan verəcək. Bu xüsusda onu da diqqətə çəkmək yerinə düşər ki, ötən il ölkəmizə səfər edən Çin vətəndaşlarının sayı 2023-cü ilə nəzərən 1,93 dəfə artıb. Cari ilin yanvar ayında Şərqi Asiya ölkələrindən Azərbaycana gələn 2983 turistin 2603 nəfəri, yəni 87,3 faizi Çin vətəndaşları olub. Azərbaycana səfər edən Çin turistlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 116 faiz artıb. 2025-ci ilin yanvar ayında 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə Çinə səfər edən Azərbaycan vətəndaşlarının sayında isə 32,4 faiz artım qeydə alınıb. Özlüyündə bu böyük artım xalqlar arasında dostluğu, mehribanlığı göstərir, dövlətlərarası əlaqələrin gücləndiyi mesajını verir. Vizasız gediş-gəlişin təmini isə, sözsüz ki, tarixi, mədəni bağları daha da gücləndirməklə müxtəlif sahələrdə yeni biznes fəaliyyətlərinin qurulmasına, sərmayə cəlbinə yol açacaq. Həmçinin ticarət və xidmət sektorlarında canlanma yaranacaq ki, bu da, son nəticədə, rəqabətqabiliyyətli məhsul istehsalına, əhalinin məşğulluq səviyyəsinin yaxşılaşmasına təsir göstərəcək.

Birgə bəyanatda yer alan müddəaların mühüm cəhətlərindən biri də tərəflər arasında əməkdaşlıq körpüsünün möhkəmlənməsinə, birgə reallaşdırılan nəhəng layihələrin rentabelliyinin artırılmasına xidmət edən hüquqi əsasların, baza prinsiplərinin daha da təkmilləşdirilməsi, bu yöndə yeni hədəflərə doğru perspektivlər açmasıdır. Sənəddə Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin Trans-Xəzər ekspres-marşrutları yaradaraq gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yükdaşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazır olduğunu qeyd etdi. Eyni zamanda tərəflər Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılığa gəldilər. Təqdirəlayiq haldır ki, hazırda nəqliyyat-logistika baxımından Azərbaycan-Çin strateji tərəfdaşlığına mühüm töhfə kimi "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Orta Dəhliz Mərkəzi Asiya və Azərbaycandan keçməklə çox perspektivli bir layihəyə çevrilməkdədir. Ümumiyyətlə, iki dövlət arasında son 10 ildə iqtisadi sahədə əsas müzakirə mövzusu məhz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, digər bir adla desək, Orta Dəhliz layihəsidir.

Bu beynəlxalq marşrutun rentabelliyinin artırılması istiqamətində ötən il bir sıra tarixi məqamlarla yadda qalıb, nəqliyyat xətti ilə yükdaşımalarda növbəti nailiyyətlərdən biri kimi mart ayında Sian limanından birinci konteyner blok-qatarı yola salınıb. İlk qatar Bakıyadək məsafəni 11 günə qət edib. Noyabrın 24-də isə Bakı-Sian ilk ixrac blok-qatarı ilə 62 ədəd 40 futluq konteyner həcmində 1664 ton koks yükü multimodal olaraq Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Siana göndərilib. Bununla da yerli sahibkarlar üçün yükləri ni birbaşa Çin bazarına çıxarmaq imkanı yaradılıb. Bu dəhlizə dair genişlənən əməkdaşlıqlar fonunda 2025-ci ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Və bütün bu proseslər belə deməyə əsas verir ki, Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Bu yola alternativ yoxdur. Orta Dəhlizin timsalında ötən il Azərbaycan-Çin ticarət tərəfdaşlığı da xeyli gücləndirilib, daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. Ümumilikdə, ötən il Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb. Əldə olunan bu nailiyyətlərin fonunda əminliklə demək olar ki, aprelin 23-də imzalanan birgə bəyanat hər iki ölkənin qarşıya qoyduqları hədəfə çatmalarına güclü impuls verən mühüm hüquqi baza rolunu oynayacaq. Beləliklə, bu qlobal layihəyə qoşulan bütün respublikaların iqtisadiyyatları güclənəcək, xalqlararası mədəni əlaqələr dərinləşməklə siyasi dialoqların artmasına təkan verəcək. Təbii ki, bütün bu siyasi-iqtisadi proseslər dünya nizamının formalaşmasında, beynəlxalq münasibətlərin tənzimlənməsində əsaslı rol oynayacaq.

Azərbaycanla Çin əlaqələrinin möhkəmliyi həm də beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və digər təsisatlar çərçivəsində özünü ən bariz şəkildə göstərir. Bu xüsusda ikitərəfli əməkdaşlıqların dərinləşdirilməsi və beynəlxalq münasibətlərin formalaşmasına töhfə olaraq çoxtərəfli dialoqun möhkəmləndirilməsi baxımından ŞƏT-in rolu xüsusi vurğu gərəkdirir. 2001-ci ildə 6 ölkə – Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunan təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, o cümlədən siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi düzənin yaradılması üçün addımların atılmasından ibarətdir. Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Respublikamızın bu beynəlxalq təşkilatla əməkdaşlığı terrorizm, ekstremizm və separatçılıqla mübarizə, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi kimi müxtəlif sahələri əhatə edir.

Prezident İlham Əliyev hər zaman Şanxay Əməkdaşlıq Təşkilatının beynəlxalq rolunun güclənəcəyinə dair yüksək fikirlərlə çıxış edir, Azərbaycan-Çin qarşılıqlı fəaliyyətin respublikamızın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcəyini vurğulayır. Ötən il iki ölkə arasında strateji tərəfdaşlığın rəsmiləşdirilməsinin məhz ŞƏT-in Astana Sammitinə təsadüf etməsini bu baxımdan dövlət başçımızın praqmatik ideya və məharətli diplomatiyasının təntənəsi kimi dəyərləndirmək olar. Aprelin 23-də hərtərəfli strateji tərəfdaşlığa dair imzalanan Birgə Bəyanatda da Azərbaycanın Çinin Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyini dəstəklədiyi və Çin tərəfinin ŞƏT-in keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirdiyi vurğulandı. Eyni zamanda respublikamız "ŞƏT-in Dayanıqlı İnkişaf İli" tədbirlərində fəal iştirak etməyə və təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirdi. Çin də, öz növbəsində, Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəklədiyini bir daha bəyan etdi. Qarşılıqlı etimadın, dostluğun, faydalı əməkdaşlığın əyani göstəricisi olan bu proseslərin davamı kimi Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət etdi. Dövlət başçımızın səfəri çərçivəsində ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirildi, Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlər imzalandı, görüş zamanı praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulandı. "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu" imzalandı ki, bu da ölkəmizin qədim şəhərinin tarixi, mədəni inkişafına, turizm potensialının genişlənməsinə imkanlar açacaq. Bu addım "Bir kəmər, bir yol" təşəbbüsü ilə çıxış edən Çinlə "İpək Yolunun dirçəldilməsi"ni dövlət inkişaf strategiyası hesab edən Azərbaycanın maraqlarını kəsişdirməklə qədim İpək Yolunun parçası sayılan Naxçıvanın tarixi ənənələrinin bərpasına da xidmət edəcək. Eyni zamanda iki şəhər arasında müxtəlif istiqamətlər üzrə dialoqun, əməkdaşlığın gücləndirilməsinə təkan verməklə muxtar respublikanın blokada vəziyyətindən tam çıxaraq dünyaya inteqrasiyasına geniş imkanlar açacaq.

Ümumilikdə, Azərbaycan Prezidenti İlham Əliyevin Çinə növbəti səfəri çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər iki ölkə arasında tarixi, mədəni bağların möhkəmlənəcəyi, təhsil, innovasiya, humanitar, iqtisadiyyat, ticarət sahələrinə dair əlaqələrin dinamik inkişafının təmin ediləcəyi mesajını verdi. Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında imzalanan Birgə Bəyanatdan yola çıxaraq deyə bilərik ki, Azərbaycan-Çin münasibətləri qlobal miqyasda öz mövqeyini daha da gücləndirəcək, strateji tərəfdaşlıq hərtərəflilik prinsipi əsasında yeni müsbət məzmunla zənginləşəcək.

**Nail ƏSGƏROV**

# Səlahiyyətli nümayəndə istedadlı şagirdlərlə görüşüb



*Aprelin 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə muxtar respublika və ölkə üzrə keçirilən olimpiadaların finalçıları və buraxılış imtahanlarında yüksək nəticə göstərən istedadlı şagirdlərlə görüşüb.*

Görüşdə səlahiyyətli nümayəndə qeyd edib ki, dünya dəyişir və inkişaf edir. Cəmiyyət bu inkişafa və yeniləşməyə ayaq uydurmalıdır. Bunun yeganə yolu isə elm və təhsildən keçir. Buna görə də ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizdə təhsilin davamlı inkişafını, maddi-texniki təminatın yüksəldilməsini daim diqqətdə saxlayır, ölkəmizdə bu istiqamətdə böyük addımlar atılır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da təhsilin inkişafı əsas prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Muxtar respublikada məktəblər ən müasir tələblər əsasında qurulur, elektronlaşma, kompüterləşmə prosesləri davam etdirilir.

Təhsili gənclərin gələcək arzularına çatması üçün yeganə yol kimi dəyərləndirən səlahiyyətli nümayəndə muxtar respublikada təhsilin səviyyəsindən razılığını ifadə edib. Bildirib ki, hər il yüksək nəticələr əldə edilir, muxtar respublika məktəbləri və məktəbliləri ölkə üzrə göstəricilərdə ön sıralarda qərarlaşırlar. Bu isə o deməkdir ki, gənclər təhsilin gücündən və dövlətimizin yaratdığı şəraitdən maksimum yararlanmaqla özlərini gələcəyə hazırlayırlar. Hər birimiz belə istedadlı şagirdlərə dəstək olmalıyıq. Çünki gənclərin təhsilinə ayrılan diqqət gələcəyə yatırılan sərmayədir.

Səlahiyyətli nümayəndə olimpiadalarda və buraxılış imtahanlarında yüksək nəticə göstərmiş şagirdləri təbrik edib, onların müəllim və valideynlərinə təşəkkürünü bildirib, hər bir şagirdə dərslərində, imtahanlarında və gələcək həyatlarında daha böyük uğurlar arzulayıb.

Fuad Nəcəfli görüşdə iştirak edən 25 şagirdlə fərdi söhbət edib. Buraxılış imtahanlarında 300 bal toplayaraq maksimum nəticə göstərmiş Səma İsmayılova və İbrahim Heydərov, eləcə də imtahan və olimpiadalarda fərqlənən şagirdlərin hər biri uğurlarından bəhs edib, gələcək arzularını və məqsədlərini diqqətə çatdırıb, yaxşı təhsil almaları üçün yaradılan yüksək şəraitə görə minnətdarlıq ediblər.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov şagirdlərin ölkə və beynəlxalq səviyyəli olimpiadalarda iştirakı ilə bağlı görülmüş işlər, nəticələrin əvvəlki illərlə müqayisəli təhlili və qarşıda duran vəzifələrlə bağlı məlumat verib. Nazir qeyd edib ki, 2024-2025-ci tədris ilində 11-ci siniflər üzrə buraxılış imtahanlarında 466 şagird 200-dən, 302 şagird 250-dən yuxarı bal toplayıb, 2 nəfər maksimum nəticə əldə edib.

Təhsil naziri diqqətə çatdırıb ki, ölkəmizin ümumtəhsil məktəbləri 2018-ci ildən PISA Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında iştirak edir. Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri də bu il ilk dəfə olaraq bu layihəyə qoşulacaq. Tədqiqatda muxtar respublikanın 12 təhsil müəssisəsindən 328 məktəblinin iştirakı nəzərdə tutulur.



Elxan Nəcəfov qeyd edib ki, şagirdlərin olimpiadalarda iştirakı onların imtahanlara daha yaxşı hazırlanması və motivasiyası baxımından böyük önəm kəsb edir. Buna görə də istedadlı şagirdlərin fənn olimpiadalarında iştirakına diqqət artırılıb. 2021-2023-cü illərdə keçirilən olimpiadalarda 10 min 34 şagird iştirak etmişdisə, 2023-2025-ci illərdə 45 min 331 məktəbli olimpiadalara cəlb edilib. Cari tədris ilində 18 şagird keçirilən müxtəlif olimpiadalarda yüksək nəticə göstərərək final mərhələsinə yüksəlib.Təhsil naziri olimpiadalara hazırlığın daha mütəşəkkil təşkili məqsədilə atılacaq addımlar barədə də məlumat verərək bildirib ki, muxtar respublikada "Olimpiada Mərkəzi"nin yaradılması nəzərdə tutulur. Bu isə istedadlı gənclərin inkişafına böyük təkan verəcək, onların respublika və beynəlxalq səviyyədə uğurlarını daha da artıracaqdır.

Sonra səlahiyyətli nümayəndə görüşdə iştirak edən istedadlı şagirdlərlə xatirə fotosu çəkdirib, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin imkanları ilə tanış olub. Fuad Nəcəfli sinif otaqlarında və istirahət guşəsində liseyin uğur qazanan şagirdləri ilə görüşüb, yataqxana şəraiti ilə maraqlanıb.

Həmin gün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərurda fəaliyyət göstərən peşə liseyi ilə də tanış olub.

Məlumat verilib ki, 200 yerlik liseydə hazırda 5 qrup fəaliyyət göstərir. Əməliyyatçı-mühasib, bərbər-vizajist-manikürçü, informasiya sistemləri üzrə texniki dəstək mütəxəssisi, baytar-texniki, isitmə və soyutma sistemləri üzrə mütəxəssis qruplarında 62 tələbə təhsil alır. Tələbələr bərbər, qaz çilingəri, xalçaçılıq emalatxanalarında əyani dərslərdə iştirak edirlər.

Səlahiyyətli nümayəndə liseyin fəaliyyətinin gücləndirilməsi və əyani vəsaitlərdən səmərəli istifadə ilə bağlı müvafiq tapşırıqlar verib.

# Naxçıvan teatrında "Ölülər" tamaşası təqdim edilib



Aprelin 23-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində "Ölülər" tamaşası təqdim edilib.



Görkəmli dramaturq Cəlil Məmmədquluzadənin anadan olmasının 155 illiyinə həsr olunmuş tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, deputatlar, ictimaiyyət nümayəndələri izləyiblər.

Teatrın direktoru Mir Qabil Əkbərovun quruluş verdiyi səhnə həllinin quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlidir. "Ölülər"in rejissoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev həm də "Şeyx Nəsrullah" rolunu ifa edib. Əsas rollardan olan "Kefli İsgəndər"i isə istedadlı aktyor Məmməd Mehdiyev canlandırıb. Xalq artistləri Rza Xudiyev, Həsən Ağasoy, Yasəmən Ramazanova, Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov, Behruz Haxverdiyev, eləcə də kollektivin təcrübəli və gənc üzvləri də yeni və orijinal quruluşda təqdim olunan tamaşada yer alıblar.

Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası muxtar respublikada mədəni sahənin, eləcə də teatrın da müasir tələblər əsasında inkişafına şərait yaradıb. Naxçıvan Dövlət Milli Dram Teatrının binasında təmir işləri aparılıb, teatrın səhnəsində bir sıra yeniliklər olunub, sonra səhnə arxasında yaradıcı heyətlə görüşüb, tamaşa ilə bağlı xoş təəssüratlarını dilə gətirib. Fuad Nəcəfli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdiyi böyük diqqət və qayğının nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların da inkişaf etdiyini, yaradıcı kollektivlərin uğurlu fəaliyyəti ilə tamaşaçı rəğbəti qazandığını vurğulayıb. Səlahiyyətli nümayəndə uğurlu səhnə həllinə, eləcə də Naxçıvan teatrının inkişafındakı xidmətlərinə görə kollektivi təbrik edib, fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Naxçıvan Dövlət Milli Dram Teatrının direktor müavini, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev yaradılan şəraitə görə minnətdarlıq edərək bildirib ki, Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoyub. Son iki ildə Naxçıvan Dövlət Milli Dram Teatrı yeni ruhda uğurlu tamaşalar hazırlayaraq repertuarını zənginləşdirib. Bu dövrdə həyat ölkəmizdə və respublikadan kənarda 10-dan çox qastrol səfərinə çıxıb. Kollektiv ötən il Naxçıvan Muxtar Respublikasının 100 illiyini Bakıda nümayiş etdirdiyi uğurlu tamaşalarla ölkə miqyasında qeyd edib.

Sonda xatirə fotosu çəkdirilib.

işıqlandırma sistemi və səs akustikası daha da təkmilləşdirilib. Teatrın kollektivi peşəkar kadr və istedadlı aktyorlarla komplektləşdirilib. Bunun nəticəsidir ki, hazırlanan tamaşalar daha uğurlu səhnə həlli ilə tamaşaçıların diqqətini cəlb edir.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli tamaşa bitdikdən

# Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib



Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının dördüncü iclası keçirilib.



Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələlərin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının, həmçinin "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin ikinci oxunuşda müzakirəsi olduğunu bildirib.



Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Nazirlər Kabinetinin hesabatı Ali Məclisin komitə iclaslarında müzakirə olunub, komitələr tərəfindən verilmiş rəylərdə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatını təqdim edib.

Ali Məclisin komitə sədrləri təmsil etdikləri komitələrin rəylərini diqqətə çatdırıb. Sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb.

İclasda Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov deputatların səsləndirdiyi sual və təkliflərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran digər məsələlərin – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin ikinci oxunuşda müzakirəsi zamanı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, qanun layihələri 16 aprel 2025-ci il tarixdə birinci oxunuşda müzakirə edilib, söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla üzərlərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilib.

Qanun layihələri barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib və redaktə olunması üçün aparıcı komitəyə qaytarılıb.

Bununla da Ali Məclisin iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Nazirlər Kabinetində müşavirələr keçirilib




Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilovun sədrliyi ilə ümumtəhsil məktəblərində təhsil alan uşaqların təhsildən yayınmasının cari vəziyyəti, yayınmanın səbəbləri, uşaq əməyinin istismarı, habelə profilaktik tədbirlər və ailələrlə işin gücləndirilməsi, ictimai nəzarətin artırılması ilə bağlı videoformatda müşavirə keçirilib.

Müşavirənin gündəliyinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova mövzu ilə bağlı çıxış edərək aidiyyəti üzrə məlumat vermiş, məsələyə dair görülməsi zəruri tədbirlərlə bağlı müzakirə aparılmışdır.

Müşavirənin yekununda Baş nazir rəy və təklifləri nəzərə alaraq aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilmiş qaydada aparılması, təhsildən yayınma hallarının səbəblərinin müəyyənləşdirilməsi və ətraflı təhlilinin aparılması, qanunvericiliyə uyğun işin təşkili, xüsusilə təhsildən yayınmanın sosial qayğıya ehtiyac səbəbindən baş verdiyi hallarda müvafiq sosial müdafiə tədbirlərinin aparılmasına dair təlimatlar vermişdir. Müzakirə mövzusunun əhəmiyyəti və sosial təsirini nəzərə alaraq məsələnin daim diqqətdə saxlanması, icra nəticələrinin müntəzəm hesabatlığının formalaşdırılması zərurəti bildirilmişdir.

***

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilovun sədrliyi ilə təhsil, səhiyyə, mədəniyyət sistemi üzrə fəaliyyətin cari vəziyyəti ilə bağlı videoformatında müşavirə keçirilib.

Müşavirədə aidiyyəti sahələr üzrə müvafiq icra qurumlarının rəhbərlərinin çıxışları dinlənilmiş, təşkilatların ölkənin analoji qurumlarına inteqrasiyası, elektron informasiya sistemlərinin vahid bazada birləşdirilməsi, bilik və təcrübə mübadiləsi üzrə əməkdaşlığın artırılması, keyfiyyətli idarəetmə sistemlərinin tətbiqi, vətəndaşlara göstərilən dövlət xidmətlərinin pasportlaşdırılması, elektronlaşması, avtomatlaşması və keyfiyyətinin yüksəldilməsi, təşkilati-struktur islahatlarının davam etdirilməsi, xüsusilə inzibati işlərin mərkəzləşdirilmiş qaydada təşkili, büdcə planlaşdırılmasının müəyyən edilmiş və əsaslandırılmış ehtiyaclar əsasında aparılması, aktiv və öhdəliklərin inventarizasiyası, habelə maliyyə vəsaitlərinin təyinatı üzrə istifadəsi, müvafiq sistemlər üzrə rəqəmsallaşdırmanın tətbiqinin sürətləndirilməsi üçün maddi-texniki bazanın möhkəmləndirilməsi müzakirə olunub. Dövlət investisiya proqramı çərçivəsində, o cümlədən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" layihələrinin aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış texniki-iqtisadi əsaslandırmalar əsasında müvafiq layihə idarəetmə qrupları tərəfindən icrasının davam etdirilməsi, əlilliyin qiymətləndirilməsi və hərbi xidmətə çağırılanların tibbi şəhadətləndirilməsi xidmətlərinin keyfiyyətlə təşkili və ölkə təcrübəsinin tətbiqi, daşınmaz mədəni irsin, arxeoloji abidələrin inventarlaşması, mühafizə zonalarının müəyyən edilməsi, habelə pasportlaşması və xəri-




tələrinin hazırlanması, məlumat bazasının yaradılması, mədəniyyət sahəsində dövlət monitorinqinin aparılması və digər aidiyyəti sahələr üzrə işlərin təşkilinə dair müzakirələr aparılmış, son göstəricilər nəzərdən keçirilmişdir.

Müşavirənin yekununda Baş nazir qeyd olunan istiqamətlər üzrə göstəricilərin artırılması məqsədilə aidiyyəti üzrə tapşırıqlar vermiş, sözügedən sahələr üzrə işlərin keyfiyyətlə icrasının zəruriliyini bildirmişdir.



# Naxçıvan-Urumçi qardaşlığı: regional əməkdaşlığın yeni strateji müstəvisi

***Müasir diplomatiya və regional inteqrasiyanın parlaq nümunəsi***

Naxçıvan Muxtar Respublikası ilə Çinin Sincan Uyğur Muxtar Rayonunun paytaxtı Urumçi şəhərinin qardaşlaşması, ilk baxışda sadə bir diplomatik jest kimi görünə bilər. Lakin bu razılaşmanın arxasında Azərbaycanın xarici siyasətində müşahidə olunan dərinləşmiş regional yanaşma, strateji tərəfdaşlığa əsaslanan diplomatik fəallıq dayanır. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan müasir Azərbaycan diplomatiyasının regionlara inteqrasiya yönümlü yeni fazasını əks etdirir. İndiki dövrdə beynəlxalq əlaqələr yalnız paytaxtlar səviyyəsində deyil, regionlar vasitəsilə də formalaşır. Bu baxımdan Naxçıvan-Urumçi əlaqələri strateji baxımdan çoxqatlı və çoxşaxəli əməkdaşlıq imkanları vəd edir.

Prezidentin Çin sədri Si Cinpinlə keçirdiyi yüksəksəviyyəli görüşlər çərçivəsində imzalanan sənədlər, Azərbaycan-Çin münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Bu çərçivədə Naxçıvanın rol alması, əslində, Azərbaycanın regional diplomatiyasında yerli qurumların və muxtar bölgələrin beynəlxalq siyasətə inteqrasiyasının açıq göstəricisidir. Bu sənədin mahiyyəti təkcə iqtisadi və mədəni əməkdaşlığa deyil, həm də siyasi çəkiyə malik olan simvolik bir jestə çevrilmişdir. Naxçıvan bu cür təşəbbüslərlə öz statusunu regional mərkəzə çevirmək yolunda mühüm addımlar atır.

***Prezident İlham Əliyevin qlobal strateji baxışında Naxçıvanın yeri***

Prezident İlham Əliyev davamlı şəkildə regionların inkişafını dövlət siyasətinin mərkəzinə yerləşdirib. Bu strategiyanın bir hissəsi olaraq regionların yalnız daxili inkişafı deyil, həm də beynəlxalq əməkdaşlıq kontekstində gücləndirilməsi hədəflənir. Naxçıvanın belə bir prosesin parçası kimi təqdim olunması onun öz geosiyasi imkanlarını və strateji yerləşməsini maksimum səviyyədə istifadə etməsi ilə bağlıdır. Üç tərəfdən sərhədlərlə əhatələnmiş bu bölgə müasir dövrdə beynəlxalq əlaqələrin lokal nümunəsinə çevrilməkdədir.

Urumçi ilə qardaşlaşma, təkcə bir siyasi akt deyil, bu, Naxçıvanın iqtisadi və mədəni cəhətdən Orta Asiyanın geniş bazarlarına çıxışı üçün açılmış bir qapıdır. Hər iki şəhər qədim İpək Yolunun əsas dayanacaqları olub və bu tarixi kontekst yeni əməkdaşlıq müstəvisində davam etdirilir. Bu, Azərbaycanın Asiya istiqamətli strateji baxışında Naxçıvana verilən rolun bir təcəssümüdür. Beləliklə, muxtar respublika yalnız daxili sabitliyin və sosial inkişafın ünvanı deyil, həm də diplomatik fəallığın simvoluna çevrilir.

***İpək Yolunun yeni nəfəsi: tarix və gələcəyin kəsişməsi***

Naxçıvan və Urumçi arasında qurulan əlaqə, əslində, tarixlə gələcəyin arasında körpü rolu oynayır. Tarixboyu İpək Yolu üzərində yerləşən bu iki məkan indi də yeni bir ticarət, innovasiya və mədəniyyət karvanına ev sahibliyi etməyə hazırlaşır. Əsrlər öncə ticarət yolları vasitəsilə bu torpaqlardan keçən karvanlar, indi rəqəmsal iqtisadiyyat, texnoloji mübadilələr və təhsil diplomatiyası ilə əvəzlənir. Bu, müasir dövrün İpək Yolu – "Bir kəmər, bir yol" təşəbbüsü ilə tam şəkildə üst-üstə düşür.

Naxçıvan bu təşəbbüs çərçivəsində beynəlxalq nəqliyyat və logistika sisteminə qoşulmaqla yeni iqtisadi müstəviyə keçid əldə edir. Urumçi ilə birgə həyata keçiriləcək layihələr çərçivəsində yük və sərnişin daşımaları, multimodal daşımalar, rəqəmsal xidmətlər və təhsil sahəsində qarşılıqlı faydalı əməkdaşlıq imkanları formalaşacaq. Bundan əlavə, Naxçıvan-Urumçi mədəni əlaqələri sayəsində keçiriləcək birgə festivallar, sərgilər, sənətkar görüşləri regionlararası mədəni diplomatiyanın real mexanizminə çevrilə bilər. Yəni bu proses təkcə iqtisadi deyil, həm də mədəniyyətin mübadiləsinə xidmət edir.

***Təhsil, sənaye və innovasiyaya yeni yol***

Təhsil sahəsində Naxçıvan və Urumçi arasında formalaşan əməkdaşlıq yalnız tələbə mübadiləsi ilə məhdudlaşmamalıdır. Gələcəkdə birgə tədqiqat layihələri, elmi konfranslar, ikili diplom proqramları kimi təşəbbüslər sayəsində iki region arasında akademik inteqrasiya daha da güclənə bilər. Çin universitetlərinin təklif etdiyi texnoloji və aqrar yönümlü ixtisaslar Naxçıvanın real ehtiyacları ilə tam uyğunlaşır.

Sənaye sahəsində də bu əlaqə yeni imkanlar açır. Urumçinin sənaye parkları və texnoloji klasterləri Naxçıvan üçün model ola bilər. Gələcəkdə Çindən investisiyaların cəlb olunması, Naxçıvanda yüngül sənaye müəssisələrinin qurulması, innovativ texnologiyaların transferi regionda məşğulluğun və iqtisadi aktivliyin artmasına səbəb olacaq. Ekoloji təmiz və yerli resurslara əsaslanan istehsal Naxçıvanın potensialını daha da artıracaq.

***Regiondan dünyaya açılan qapı***

Bu qardaşlaşma razılaşması, sadəcə, bir niyyət bəyanatı deyil, bu, real strateji transformasiyanın başlanğıcıdır. Qloballaşan dünyada artıq yalnız paytaxtlar deyil, bölgələr də qərarların iştirakçısına çevrilməkdədir. Naxçıvan bu yeni düzənə uğurla inteqrasiya olunur. Bu, Azərbaycanın diplomatik xəritəsində Naxçıvanın yeni statusu ilə təmsil olunmasının bariz nümunəsidir.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Naxçıvanın beynəlxalq arenada aktiv iştirakı təmin olunur. Urumçi ilə bu münasibət, sadəcə, iki şəhər arasında əməkdaşlıq deyil, bu, iki sivilizasiya arasında strateji tərəfdaşlığın təməlidir. Bu proses gələcəkdə daha çox sektoru əhatə edəcək və Naxçıvanı dünyaya çıxaran əsas qapılardan birinə çevirəcək.

**Əli ABBASOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

**Baş redaktordan**

**Sara ƏZİMOVA**

# Cənab Prezidentin mediaya növbəti qayğısı



Biz, "Şərq qapısı" qəzetinin kollektivinin üzvləri olaraq Azərbaycan milli mətbuatının 150 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə bağlı imzaladığınız Sərəncamı böyük məmnuniyyət və minnətdarlıq hissi ilə qəbul edirik.

Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir.

Müharibə dövründə mediamız əsl vətənpərvərlik və həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Bu gün, cənab Prezident, biz əminik ki, Azərbaycan mətbuatı dövlətimizin və xalqımızın gücünün dünyaya çatdırılması işində öz rolunu oynamağa davam edəcək və Sizin rəhbərliyinizlə Naxçıvanın da Azərbaycanın tam vəhdətinin mühüm hissəsi olaraq birləşməsi məsələsi yaxın gələcəkdə reallığa çevriləcəkdir. "Şərq qapısı" qəzetinin kollektivi olaraq biz də bu böyük məqsədin dəstəklənməsi və həyata keçirilməsi üçün daim hazır olacağıq.

Cənab Prezident, göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirir, ölkəmizin inkişafı, ordumuzun güclənməsi və mətbuatımızın daha da irəliləməsi üçün bu cür dəstəyin davamlı olacağına ümid edirik.

# Naxçıvanda Türkiyənin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü qeyd edilib





Naxçıvan Dövlət Milli Dram Teatrında Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, "Günəş" Uşaq Akademiyasının birgə təşkilatçılığı, eyni zamanda Mədəniyyət Nazirliyi və "Cahan" Holdinq Şirkətlər Qrupunun dəstəyi ilə Türkiyənin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə hər iki ölkənin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya 23 aprel tarixinin qədim türk diyarı Naxçıvanda yüksək coşqu ilə qeyd olunmasının olduqca sevindirici və qürurverici olduğundan danışıb. Bu möhtəşəm tədbirin təşkil olunmasında əməyi keçən hər kəsə öz minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Gününün Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün uşaqlara olan qayğı və diqqətinin təcəssümü olduğundan bəhs edib.

"Günəş" Uşaq Akademiyasının direktoru Ulduz Əliyeva da çıxış edərək bu günün önəm və mahiyyətindən bəhs edib. Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra "Günəş" Uşaq Akademiyasının üzvləri, "Şərur" Xalq Yallı Ansamblının uşaqlardan ibarət qrupu, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının fəal uşaqları birbirindən rəngarəng bədii kompozisiyalarla çıxış ediblər. Həmçinin Ümummilli Lider Heydər Əliyevin, dahi öndər Mustafa Kamal Atatürkün aforizmləri səsləndirilib, o cümlədən görkəmli dramaturq Hüseyn Cavidin "Qız məktəbində" şeiri qiraət edilib, incəsənət nümunələri nümayiş olunub. Türk sənətçisi Ahmet Şafakın "Azərbaycan-Türkiyə" mahnısı möhtəşəm rəqs şousu ilə səsləndirilib.

Sonda tədbirdə iştirak edən bütün uşaqlar birlikdə "23 nisan kutlu olsun" və "Hayat bayram olsa" mahnılarını ifa ediblər.

# "Şərq qapısı" qəzetinin əməkdaşı Heydər Əliyev Fondu tərəfindən təşkil edilən Bakı Marafonunun fəxri iştirakçısı seçildi




Heydər Əliyev Fondu tərəfindən təşkil edilən ənənəvi Bakı Marafonunda bu il "Şərq qapısı" qəzetinin əməkdaşı Səhnə Tağıyeva fəxri iştirakçı statusu ilə təmsil olunacaq.

Qürurverici haldır ki, Naxçıvandan çıxan bu yol yalnız fiziki məsafəni deyil, eyni zamanda qəlbləri və arzuları birləşdirir. Səhnə xanımın marafona qatılması, sadəcə, bir qaçış deyil – bu, sağlamlığa, ruh yüksəkliyinə və birliyə olan inamın simvoludur.

Biz Səhnə xanımı təbrik edir və arzulayırıq ki, onun qaçışı təkcə Bakı bulvarında yox, bir gün göylərdən keçərək, azad yollarla Naxçıvandan Bakıya uzanan bir uçuşa çevrilsin.

Yolların açıq olsun, yol qədər yaxın olaq!

*Əhməd ƏHMƏDOV*

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində növbəti məlumat sessiyası Naxçıvanda fəaliyyət göstərən media nümayəndələri üçün təşkil edilib



Aprelin 25-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Medianın İnkişafı Agentliyi Hüquq və İnsan Haqları İnstitutu ilə birgə Naxçıvanda fəaliyyət göstərən media nümayəndələri üçün "Konstitusiya ali hüquqi sənəd kimi: əsas insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında təminatı" mövzusunda məlumat sessiyası təşkil edilib.

Tədbirin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova vurğulayıb ki, sessiyanın keçirilməsində əsas məqsəd jurnalistlərin hüquqi biliklərinin artırılması və konstitusion əsaslarla bağlı maarifləndirici fəaliyyətlərin genişləndirilməsidir. O qeyd edib ki, informasiya yayımında qanunvericiliyin tələblərinə əməl olunması, habelə hüquqi çərçivədə fəaliyyətin təşkili cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət daşıdığından belə sessiyaların keçirilməsi xüsusilə önəmlidir.

Tədbir çərçivəsində Hüquq və İnsan Haqları İnstitutunun təlimçi-ekspertləri Zümrüd Əlizadə və Heydər Həsən oğlu Əliyev tərəfindən təqdimatlar keçirilərək universal insan hüquqları, Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında təsbit olunmuş əsas hüquq və azadlıqlar, habelə insan və vətəndaş hüquqlarının təminatı, eləcə də milli və beynəlxalq hüquq müdafiə mexanizmləri barədə ətraflı məlumat verilib.

Məlumat sessiyası interaktiv şəkildə davam edib, iştirakçılarla geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

# Könüllü gənclər Şəhidlər bağında aksiya keçiriblər



Naxçıvanda könüllü gənclərin iştirakı ilə "Konstitusiya və Suverenlik İli" və Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar ekoloji aksiya təşkil olunub. Aksiya çərçivəsində Şəhidlər bağında ağaclara aqrotexniki qulluq göstərilib, suvarma işləri həyata keçirilib, ərazi irihəcmli daşlardan təmizlənib, eyni zamanda meyvə tingləri əkilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Saleh Həsənov və "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədr müavini Əli Əlisoy çıxışlarında ordumuzun tarixi Zəfərindən, qəhrəman Vətən övladlarının şücaətindən, gənc nəslə miras buraxdığı mənəvi dəyərlərdən bəhs edib, birgə təşəbbüs əsasında gerçəkləşən aksiyanın şəhidlərimizin əziz xatirəsinə ithaf olunduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, bu cür təşəbbüslər həm də cəmiyyətin diqqətini ekoloji problemlərə yönləndirmək, ətraf mühitin mühafizəsinə töhfə vermək məqsədinə xidmət edir.

Aksiyada adıçəkilən dövlət qurumlarının əməkdaşları, qazilər və müxtəlif könüllü qrupların üzvləri iştirak ediblər.

Xatırladaq ki, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gedən yolun kənarında yerləşən Şəhidlər bağı ötən ilin noyabrında salınıb. Bağda Naxçıvanın 1990-cı illərdən bu günə kimi şəhidlik zirvəsinə ucalan oğullarının hər birinin adına bir meyvə tingi əkilib.

# Naxçıvanda rəhbərlər üçün təlimlərə start verilib



Aprelin 25-də Naxçıvan Muxtar Respublikasının 19 dövlət orqanını təmsil edən 40 məsul əməkdaş üçün "Rəhbərlər üçün İnkişaf Proqramı" başlayıb. 2 ay davam edəcək proqramın təlimçisi ABŞ-nin "Beynəlxalq Liderlik Proqramı"nın məzunu İlhamə Novruzovadır. "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin təqdim etdiyi proqram fərqli idarəetmə mexanizmləri, rəhbərin məsuliyyət sahələri, natiqlik və təqdimat bacarıqları, şəxsi effektivliyin artırılması, komanda təşkilində konstruktiv həll yollarını əhatə edir.

Təlimin ilk günündə özünü təqdimatlar və interaktiv müzakirələr keçirilib. İştirakçılara real təcrübələr vasitəsilə effektiv liderlik bacarıqları aşılanıb, menecer və lider arasındakı fərqlərdən, buna dair real keyslərdən danışılıb. Situativ və sistem idarəetmə texnologiyası istiqamətində davam edən intensiv təlim iştirakçıların marağına səbəb olub.

Naxçıvan Təlim Mərkəzi tərəfindən xüsusi hazırlanan "Rəhbərlər üçün İnkişaf Proqramı"nın məqsədi səlahiyyət sahibi olan top-menecerlərin uğurlu komanda qurucuŀuğu və liderlik bacarıqlarının artırılması, yeni model idarəçilik tərzlərinin təşviqidir. 32 saatı əhatə edən təlim sessiyalarına şöbə və sektor müdirləri, böyük mütəxəssislər cəlb olunublar. Proqramı müvəffəqiyyətlə bitirən iştirakçılara sertifikatlar təqdim ediləcək.

Qeyd edək ki, Naxçıvan Təlim Mərkəzi muxtar respublika ərazisində dövlət qurumlarının əməkdaşlarının peşəkar inkişafı və gənclərin peşə bacarıqlarının artırılması məqsədilə ixtisaslaşdırılmış təlimlər və proqramlar həyata keçirən publik hüquqi şəxsdir.

# XXI əsrin böyük çağırışı – suya qənaət

İnsanlıq üçün həyati əhəmiyyət daşıyan resurslardan biri olan su bu gün bəşəriyyətin qarşısında duran ən ciddi problem – qlobal su qıtlığı ilə təhlükə altındadır. Birləşmiş Millətlər Təşkilatının açıqladığı məlumatlara görə, hazırda dünyada 2,2 milyarddan artıq insan içməli su problemi ilə qarşı-qarşıyadır. Verilən açıqlamalar və alimlərin proqnozları onu göstərir ki, 2030-cu ilə qədər suya tələbat təklifdən 40 faiz artıq olacaq və bu da ciddi mənada su qıtlığı ilə nəticələnəcək. Bu böhran ciddi qida çatışmazlığı, epidemiyalar və bir çox yoluxucu xəstəliklərin meydana gəlməsinə səbəb ola bilər.

Qlobal su qıtlığı probleminin bir çox başlıca səbəbləri vardır. İqlim dəyişikliyi, sənayeləşmə, əhali artımı və insanlar tərəfindən suyun düzgün istifadə edilməməsi və sair kimi amilləri buna misal göstərmək olar. Belə ki, qlobal istiləşmələr və yağıntıların az olması səbəbindən quraqlıq dövrünün uzanması və təbii su ehtiyatlarının azalması ilə nəticələnir. Bununla yanaşı, sürətli şəkildə artan dünya əhalisi ilə müqayisədə təbii su ehtiyatları artmadığı üçün tələbatla təminat arasında ciddi uçurumlar yaranmış olur. Digər bir tərəfdən, sənayeləşmə də təbii su ehtiyatlarına öz təsirini göstərir. Sənaye tullantıları su resurslarının keyfiyyətini ciddi şəkildə aşağı salır. Eyni zamanda kənd təsərrüfatında suvarma üçün istifadə olunan sular təbii su sərfiyyatının 70 faizə qədərini təşkil edir. Bu da ciddi rəqəmdir. İnsanların suyun tükənməz olduğu düşüncəsinə qapılması və israfçılığa yol vermələri də su qıtlığını kəskinləşdirən əsas amillərdəndir.



Qlobal su böhranı insanlıq üçün hərtərəfli təhlükə yaradır. Su qıtlığı təbiətin münbitliyinə və bununla yanaşı, sosial-iqtisadi sabitliyə də ciddi təsir göstərir. Quraqlıq və su çatışmazlığı nəticəsində kənd təsərrüfatında məhsuldarlıq azalır və bu da, öz növbəsində, məhsullarda qiymət artımına gətirib çıxarır. Bu, su qıtlığına dair verə biləcəyimiz ən sadə misallardan biridir.

Başımıza gələ biləcək fəlakətlərin qarşısını almaq üçün bu məsələyə qarşı həm fərdi, həm də qlobal şəkildə mübarizə aparmalıyıq. Bu istiqamətdə görülə biləcək ən sadə metod isə qənaətdir. Məsələn, gündəlik həyatımızda məişətdə sudan istifadə zamanı israfçılığa nə üçün yol veririk? Əgər cəmiyyətin hər bir fərdi bu məsələyə özlüyündə ciddi yanaşarsa müəyyən nailiyyətlər əldə etmək mümkün olar. Unutmayaq ki, qlobal su böhranı gələcəyin deyil, bu günün problemidir. Bu məsələyə dair ictimai və texnologiya sahəsində də bir çox işlər görmək olar. Hər nə qədər iqlim dəyişikliyi ilə əlaqədar yağıntılar az olsa da, buna baxmayaraq, yağan yağış sularının düzgün şəkildə dəyərləndirilməsi bu sahədə atılacaq mühüm addımlardan biridir. Eyni zamanda kənd təsərrüfatında daha məqsədəuyğun suvarma sistemlərinin istifadəsi suya qənaət baxımından yerində bir addım ola bilər. Bununla yanaşı, bu mövzuda maarifləndirmə işlərinin aparılması, müxtəlif layihələrin həyata keçirilməsi, bütün təhsil müəssisələrində bu məsələyə dair seminarların təşkili və bir sıra könüllülük layihələrinin müsbət təsiri danılmazdır.

Günümüzdə su qıtlığı artıq yalnız ekoloji yox, eyni zamanda strateji və sosial təhlükədir. Bunun qarşısını almaq üçün isə fərdi və kollektiv şəkildə məsuliyyətli olmaq, "Su varsa, həyat var" prinsipini rəhbər tutaraq suya qarşı qənaətcil davranmaq lazımdır.

**"Şərq qapısı"**

# Rəsmi Ağ Ev: "ABŞ Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır"



Azərbaycan dünya nizamının formalaşdırılması istiqamətində müxtəlif siyasi platformalardan, ali tribunalardan bəşəriyyəti sülhə, təhlükəsiz birgə yaşayışa, əmin-amanlığa səsləyir, qlobal problemlərlə mübarizəyə dair çağırışlar edir. Respublikamızın bütün bu addımların timsalında regional və beynəlxalq dialoqa xidmət edən çoxvektorlu, balanslı siyasəti dünyanın aparıcı ölkələri tərəfindən birmənalı şəkildə dəstəklənir, rəğbətlə qarşılanır. Çoxtərəfli əməkdaşlığın inkişafı, regionlararası münasibətlərin tənzimlənməsi kimi humanist prinsiplərə söykənən bu siyasi xətt Azərbaycan-ABŞ əlaqələri üçün də strateji əhəmiyyətli mühüm perspektivlər açır və xüsusilə hazırkı məqamda ölkəmizin Ağ Evin yeni administrasiya ilə yaxınlaşmasında müsbət gözləntiləri daha da artırır.

Ümumiyyətlə, son 20 ilə yaxın beynəlxalq və regional müstəvidə cərəyan edən siyasi-iqtisadi proseslər belə deməyə əsas verir ki, ölkəmizin ABŞ-nin respublikaçılar administrasiyası ilə birgə fəaliyyətində müsbət tendensiya davamlı xarakter daşıyıb. Prezident İlham Əliyev də bu il aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda siyasi ekspertin sualına cavab olaraq rəsmi Bakı ilə Ağ Ev arasındakı əlaqələrin tarixinə nəzər saldı, münasibətlərin inkişafı üçün yaxşı təcrübə olduğunu vurğuladı: ***"Mənim şəxsi təcrübəm nöqteyi-nəzərindən, – mən bunu dəfələrlə bölüşmüşəm, – sözsüz ki, respublikaçıların administrasiyası ilə işləmək demokratların administrasiyası ilə işləməkdən daha rahat olub. Mən prezident kimi fəaliyyətə 2003-cü ildə, Prezident Corc Buşun dövründə başlamışam və iki ölkə arasında münasibətlər çox yaxşı idi. Hər ikimiz qarşılıqlı dəstəyi yüksək qiymətləndirirdik və ikitərəfli əlaqələrimizin strateji əhəmiyyətini açıq şəkildə bəyan edirdik".***

Ölkə başçısının da qeyd etdiyi kimi, istənilən münasibətin, əlaqənin hazırkı vəziyyəti və gələcəyi onun keçmişindən, qazanılan təcrübədən böyük mənada asılıdır. Elə Azərbaycan-ABŞ əməkdaşlığı da bu baxımdan xarakterizə etmək olar. Belə ki, Azərbaycan-ABŞ münasibətlərinin yeni dönəmdə necə olacağı ilə bağlı daha da əmin fikirlər irəli sürmək üçün öncə Tramp administrasiyasının hakimiyyətdə olduğu birinci dövr – 2017-2021-ci illərdə Cənubi Qafqaza dair cərəyan edən hadisələri, regional və beynəlxalq miqyaslı siyasi-iqtisadi məsələləri analiz etmək lazımdır. Təqvimi geri çevirəndə ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində müsbət dinamikanın hökm sürdüyünü göstərən bir sıra faktlara rast gəlirik: İlk olaraq əvvəllər dəfələrlə gündəmə gətirilən və ölkələrarası münasibətlərə ciddi xətər yetirən, Azərbaycana dövlət yardımı qadağasını nəzərdə tutan 907-ci düzəlişin Donald Trampın birinci dönəmində hər il dondurulmasını vurğulaya bilərik. Sözsüz ki, diqqətə çəkiləsi ən əsas amil məhz respublikaçıların hakimiyyəti dövründə ölkəmizin 30 il işğalda qalan torpaqlarını azad etməyə nail olmasıdır. Nəzərə alaq ki, 2020-ci il sentyabr-noyabr aylarında, yəni II Qarabağ müharibəsi dönəmində Amerikada qızğın seçki kampaniyası gedirdi və Tramp erməni seçicilərin dəstəyini qazanmaqdan ötrü müharibənin gedişatına təsir göstərə bilərdi. Ancaq həmin vaxt anti-Azərbaycan siyasəti aparan, haqlı mövqeyimizə fərqli don geyindirməyə çalışan Qərb dairələrindən fərqli olaraq ABŞ tərəfindən Azərbaycanın beynəlxalq hüquqa xidmət edən missiyasını uğurla tamamlamağa mane olacaq hər hansı ciddi addım atılmadı.

Rəsmi Bakının respublikaçılarla yaxınlığını göstərən ikinci mühüm amil isə iqtisadi sahədə ölkəmizin təşəbbüslərinin dəstəklənməsi faktıdır. Belə ki, Donald Tramp birinci dönəmdə Azərbaycanın irəli sürdüyü mühüm enerji layihələrinin icrasına töhfə verib, regional və beynəlxalq enerji təhlükəsizliyinin təmininə xidmət edən addımları yüksək qiymətləndirib. Bu baxımdan XXI əsrin ən böyük layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin reallaşması prosesini xüsusi qeyd etmək lazımdır. Tramp 2018-ci ildə layihənin rəsmi açılışı ilə əlaqədar öz dəstəyini həmin ili enerji sahəsində uzun müddətdir, davam edən Amerika-Azərbaycan əməkdaşlığında inanılmaz bir nailiyyət kimi dəyərləndirməklə ifadə edib, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində münasibətlərin zirvəyə yüksəldiyini vurğulayıb.

Ağ Ev administrasiyası ilə yeni dönəmdə əlaqələr barədə müsbət fikirlər yaradan əsas nüanslardan biri də Cənubi Qafqazda müharibə ocağı qalamağa çalışan, işğalçı dövlətə dəstəyini əsirgəməyən Bayden demokratlarından fərqli olaraq respublikaçıların sülhü, dialoqu, əməkdaşlığı ön plana çəkməsidir. Və təbii olaraq, bu dəyişiklik ermənilərin məkrli planlarının da, böyük mənada, qarşısını alaraq onları məyusluğa qərq edib. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Onlar Amerikada seçkilərdən sonra demokratların administrasiyada qalacaqlarına çox güvənirdilər. Lakin Prezident Trampın qələbəsi onları çox məyus etdi. Biz hamımız bunu bilirik".*** Hayları dilxor edən digər bir məqam isə Donald Trampın Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu və orada yer alan fikirlərdir. Bəli, cənab Tramp məktubda açıq-aşkar ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini bəyan edir. Başqa sözlə, Ağ Ev də "Qarabağ Azərbaycandır!" – deyir. "Super güc" respublikamızın regional sülh və əməkdaşlıq istiqamətində atdığı addımlardan məmnundur və bu addımlara dəstək verir: "Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanın regional sülh və əməkdaşlıq istiqamətində atdığı addımlar dedikdə təkcə Ermənistanla münasibətlər nəzərdə tutulmur. Rəsmi Bakının təqdim etdiyi sülh platformasından dost, qonşu ölkələr də yararlanır və konkret nəticələr də vardır. Nümunə üçün demək olar ki, Türkiyə və İsrail münasibətlərinin normallaşmasında, ilk uğurlu barışıqda respublikamızın vasitəçilik missiyası böyük rol oynayıb. Təbii ki, bu mütərəqqi addım da Birləşmiş Ştatların maraqlarına tam uyğundur və Azərbaycanla yaxınlaşmasına töhfə xarakteri daşıyır. Təsadüfi deyildir ki, Donald Tramp təbrik məktubunda da Azərbaycanın Ağ Evin tərəfdaşı İsrailə dəstəyini, onunla dostluğunu dəyərləndirdiyini vurğulayır.

Ümumilikdə, respublikaçılar partiyasının birinci hakimiyyəti dönəmində Azərbaycan-ABŞ münasibətlərinin, eyni zamanda ikinci dövr başlayan kimi dərhal anti-Azərbaycan trendinin dayandırılması faktını, hazırkı vəziyyəti nəzərdən keçirəndə əlaqələrin müsbət tendensiya ilə davam edəcəyi, daha da fəallığın müşahidə olunacağı qənaətinə gəlirik. Artıq Tramp administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə təmaslar da baş tutub, gündəlik çox səmərəli və qarşılıqlı şəkildə məqbul sayılıb. Digər tərəfdən, Ağ Evin yeni rəhbərliyinin gündəliyinə nəzər salsaq, ikitərəfli münasibətlərdə yeni dövrün tərəfdaşlığı gücləndirmək baxımından çox yaxşı imkanlar açacağını görə bilərik. Ən əsas məqam isə, şübhəsiz, Donald Trampın bəzi Avropa ölkələrinin riyakar münasibətlərini görməsi və buna müvafiq addımlar atması kimi, bu da Azərbaycan-ABŞ maraqlarını ciddi şəkildə kəsişdirir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bizim birinci prezidentlik dövründə Tramp administrasiyası ilə işləməklə bağlı çox müsbət təcrübəmiz var. Bizim münasibətlərimizdə heç bir böhran yox idi. Bəli, münasibətlərimiz istədiyimiz kimi fəal deyildi, lakin bu, birinci prezidentlik dövrü idi. İndi Prezident Tramp və komandası Avropa İttifaqının ona qarşı riyakarlığını gördü, Avropa liderlərinin xanım Harrisi dəstəkləməklə ona qarşı sövdələşmənin arxasında necə durduğunu gördü, beləliklə, o bunu öz üzərində hiss etdi. Ona görə də ikinci prezidentliyi dövrü, – əlbəttə ki, bu mənim qiymətləndirməmdir, – birinci dövrlə müqayisədə daha fəal olacaq və daha çox diqqəti amerikalıların milli maraqlarına yönəldəcək".***

**"Şərq qapısı"**

# Qars-İğdır-Naxçıvan dəmir yolu:
## *blokadadan inkişaf dəhlizinə*




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkənin tranzit-logistika imkanlarının artırılması xüsusi hədəflərdən biri kimi müəyyən edilib. Elə bu istiqamətdə beynəlxalq əhəmiyyətli iqtisadi layihə – Zəngəzur dəhlizi və onun tərkib hissəsi olan Qars-İğdır-Naxçıvan dəmir yolu mühüm infrastruktur layihəsidir. Ümumilikdə, Orta Dəhlizə daxil olan bu layihələr, sadəcə, Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək xarakteri daşımır. Eyni zamanda bu layihələr Avropa ilə Asiya üçün ticarət əlaqələri cəhətdən qlobal əhəmiyyət kəsb edir. Məhz bu layihənin reallaşması ilə Naxçıvanda regionun iqtisadi, turizm potensialı və logistika imkanları daha da genişlənəcək. Azərbaycanla Türkiyəni birləşdirən bu dəmir yolu xətti, eyni zamanda Orta Asiyadan Avropaya uzanan beynəlxalq ticarət yollarının mühüm halqasına çevriləcək.

Elə bu kontekstdə dəmir yolu layihəsinin Naxçıvana verə biləcəyi iqtisadi üstünlüklər, logistik imkanlar və turizmə təsiri barədə Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisadçı ekspert Əli Cabbarov-la həmsöhbət olduq:

***– Əli müəllim, Qars-Naxçıvan dəmir yolu xətti layihəsinin ümumi iqtisadi əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik. Bu layihə region üçün nə vəd edir?***

– Bu dəmir yolu xətti həm iqtisadi, həm də geosiyasi əlaqələr baxımından olduqca mühüm bir layihədir. Qars-Naxçıvan dəmir yolu Azərbaycanla Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması deməkdir. Naxçıvanın beynəlxalq ticarət şəbəkəsinə inteqrasiyası üçün də bu dəmir yolu xətti olduqca əhəmiyyətli olacaq. Təbii ki, bu da regionda iqtisadi fəallığın artmasına, yeni investisiyaların cəlb olunmasına, turizmin inkişafına və məşğulluğun yüksəlməsinə səbəb olacaq.

***– Bəs mütərəqqi logistika və turizm baxımından bu dəmir yolu Naxçıvana hansı imkanları gətirəcək?***

– Əvvəla, dəmir yolu xəttinin istifadəyə verilməsi ilə nəqliyyat xərclərinin azalması, malların çatdırılma müddətinin qısalması və yükdaşıma səmərəliliyinin yüksəlməsi gözlənilir. Hazırda Naxçıvana daşınan yüklər, əsasən, hava və avtomobil nəqliyyatı ilə çatdırılır, bu isə həm baha başa gəlir, həm də operativ deyil. Yeni dəmir yolu ilə Naxçıvandan Türkiyəyə, oradan Avropaya və əks-istiqamətdə mal dövriyyəsi sürətlənəcək. Bu, yerli sahibkarların ixrac imkanlarını artıracaq, kənd təsərrüfatı məhsulları üçün yeni bazarlar açacaq və eyni zamanda logistik mərkəzlərin yaradılmasında da zəmin rolu oynayacaq.

Bununla yanaşı, dəmir yolunun, xüsusilə də turizmə böyük təsiri olacaq. Naxçıvan zəngin tarixi, mədəni və təbii irsə malik bir bölgədir. Lakin illərdir, burada turizmin inkişafı məhz nəqliyyat məhdudiyyətləri səbəbi ilə ləngiyirdi. Yeni dəmir yolu xətti Naxçıvana quru yolla rahat və sərfəli səyahət imkanları yaradacaq. Qardaş Türkiyədən və digər ölkələrdən turistlərin axını artacaq, turizm servislərinə tələbat yüksələcək.

***– Bəs, sizcə, bu layihə regionda hansı iqtisadi və sosial dəyişikliklərə yol aça bilər və belə bir strateji layihənin davamlı uğur qazanması üçün hansı amillər önəmlidir?***

– Həm Naxçıvan, həm də qardaş Türkiyənin Azərbaycanla həmsərhəd regionlarının iqtisadi göstəricilərində dəmir yolu sayəsində yüksək artımlar olacaqdır. Bu sayədə region əhalisinin gəlir səviyyəsinin yüksəlməsi və sosial rifahın artması kimi müsbət nəticələr gözlənilir. Bundan əlavə, mədəni əlaqələr də genişlənəcək və nəticədə, dəmir yolunun effektiv istifadəsi ilə logistik infrastrukturun – yükləmə-boşaltma məntəqələrinin, anbarların, gömrük zonalarının yaradılması, turizm infrastrukturunun yenilənməsi, sahibkarlara dəstək proqramlarının reallaşması mümkün olacaq. Ən əsası isə bu layihə bölgədə davamlı sülh və təhlükəsiz mühitə zəmin yaradaraq Naxçıvan üçün yeni bir inkişaf mərhələsinin başlanğıcı olacaqdır.

**Cavanşir BAĞIRLI**

# Günəş kimi parlayan həkimlərdən olacağam



Akademik Zərifə Əliyeva Azərbaycanın tibb sahəsində parlaq iz qoymuş görkəmli alim, həkim və ziyalı xanımdır. Onun həyat yolu və elmi fəaliyyəti bu gün də tibb sahəsində təhsil alan gənclər üçün örnəkdir. Çünki o təkcə savadı və peşəkarlığı ilə deyil, həm də insanlara olan sevgisi, fədakarlığı və yüksək mənəviyyatı ilə yaddaşlarda qalıb. Azərbaycan qadınının elm, ailə və ictimai həyatda necə uğur qazana biləcəyini sübut etmişdi. Zərifə xanım müasir, ziyalı və vətənpərvər Azərbaycan qadınının simvoludur. Zərifə xanımın irsi, fəaliyyəti və şəxsiyyəti gənc nəsildə yüksək mənəvi və peşəkar keyfiyyətlərin formalaşmasına töhfə verir. Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası üzrə III kurs tələbəsi, Zərifə Əliyeva adına fəxri təqaüdçü Püstəxanım Quliyeva deyir: “Universitetdə Zərifə Əliyeva adına fəxri təqaüdə layiq görülməyimi eşidəndə xeyli sevindim. Birinci kursda təhsil alan, hələ universitetdə ilk addımlarını atan bir tələbə üçün bu təqaüdün verilməsi böyük şərəf idi. Bu mükafatın, necə deyərlər, ayağı sayalı imiş. Belə ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş təqaüdə layiq görüldüm, respublika üzrə 100 tələbədən biri oldum”.

Müsahibimiz Zərifə Əliyevanın tələbə yoldaşı Sona Salmanovanın rəfiqəsi olmuş nənəsindən eşitdiklərindən də danışır: “O öz qrup yoldaşlarına qarşı çox diqqətcil, çox mehriban idi. Soyuqda, qarda uzaqda yaşayan tələbə yoldaşlarımızı qalmaq üçün Bakıdakı evlərinə aparardı. Zərifə xanımın mənəvi təsiri idi ki, qrupumuzdakı tələbələrin çoxu göz həkimi olmaq istəyirdi. Zərifə xanım həm də çox xeyirxah idi. Müharibənin gətirdiyi çətinliklərdə üst geyimi, paltosu olmayan tələbə dostlarına öz yardımını əsirgəməzdi. Bu sözləri mən Zərifə xanımın tələbə yoldaşı Sona xanımın qızı Gülyetər xanımdan eşitmişəm”. Məhz bu sözlər də onu təsdiqləyir ki, mükəmməllik, insan obrazının aliliyi budur. Zərifə xanımı tanıyan hər kəsin onu yüksək keyfiyyətlərlə tanıdığına, Zərifə xanımın heç də adi insan deyil, seçilmiş olduğuna ruhən tamamilə inandım. Ona görə də Zərifə xanım hamı tərəfindən mübariz, məğrur, zərif bir qadın kimi yad olunur.

Püstəxanım qeyd etdi: “Mən də bu ləyaqətli peşənin davamçısı kimi akademik Zərifə Əliyevanın müdrik yolunu özümə rəhbər tutub, onun da dediyi kimi günəş kimi parlayan həkimlərdən olacağam. Layiq görüldüyüm Zərifə Əliyeva adlı təqaüdün hər zaman haqqını verməyə çalışıb, millətimin yaddaşında onun kimi faydalı, onun kimi qayğıkeş, onun kimi gülərüz qalacağam. Bu gün onun yolu mən və mənim kimi uca həkimlik peşəsinin davamçıları üçün çox böyük və unudulmaz bir örnəkdir”.

Müsahibimizin sözlərindən o nəticəyə gəlirik ki, bu gün tibb sahəsində təhsil alan gənc tələbələr Zərifə xanımın həyat yoluna baxaraq peşəkar və mərhəmətli həkim olmağın nümunəsini görürlər. Onun elmi irsi təkcə tibb sahəsində deyil, insanlara xidmət etmək ideyasına bağlı olan hər bir gənc üçün böyük ilhamdır.

Zərifə Əliyeva gənc nəsildə yüksək mənəvi keyfiyyətlər, insana sevgi və vicdanlılıq kimi dəyərləri aşılayaraq gələcəyin sağlam və savadlı həkimlərini yetişdirməyə töhfə verib. Onun adı bu gün də universitet auditoriyalarında ehtiramla çəkilir, ideyaları isə yaşamağa davam edir.

Biz də bu yolda Püstəxanıma və onun timsalında bütün tələbələrə uğurlar arzu edirik!

**Bülbül QULİYEVA**

# “İdarəetmədə və təhsildə rəqəmsallaşdırma” mövzusunda II respublika elmi konfransı keçirilib



Naxçıvan Dövlət Universitetində “İdarəetmədə və təhsildə rəqəmsallaşdırma” mövzusunda II respublika elmi konfransı keçirilib.

Konfrans Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin tərəfdaşlığı və 20-dən çox elm-təhsil müəssisəsindən olan tədqiqatçıların, universitetin müəllim-tələbə heyətinin iştirakı ilə təşkil edilib.

Tədbirdən əvvəl İncəsənət fakültəsinin tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub.

Konfransda öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək konfransın təşkilini yüksək qiymətləndirib, dördüncü sənaye inqilabı dövründə müasir çağırışların rəqəmsal bacarıqları öyrənməyi və yararlanmağı tələb etdiyini vurğulayıb. Rektor bildirib ki, NDU bu yöndə ölkədə nümunəvi ali təhsil müəssisəsidir ki, ilk dəfə elektron təhsil sisteminə keçib, ölkədə ilk dəfə smart tələbə kartı “TələbəPlus”ın istifadəsini tətbiq edib, tədris prosesi və elmi tədqiqatlarda hibrid təhsil qurulub, elmi əsərlər jurnalı elektronlaşıb. Rektor, həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində bu il reallaşacaq NDU-da İnnovasiyalar Mərkəzi barədə məlumat verərək məqsədin ölkədə rəqəmsal bacarıqlara dair strategiyaya uyğun, əmək bazarının tələblərinə cavab verən, yenilikçi kadrlar hazırlamaq olduğunu qeyd edib.

Sonra plenar çıxışlar başlanıb.

Konfransda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Sonra konfransın keçirilməsində göstərilən təşkilatı dəstəyə görə tərəfdaş üzvlərə Naxçıvan Dövlət Universiteti adından təşəkkürnamə təqdim edilib.

Sonda xatirə fotosu çəkilib.
Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, bölmə iclasları 3 salonda, 10 panel üzrə keçirilib. 23 təşkilatın 115 tədqiqatçısı tərəfindən 83 tədqiqat üzrə məruzələr təqdim edilib. Konfransın sonunda iştirakçılara sertifikatlar verilib.

# Naxçıvan Dövlət Universitetinin tələbələri beynəlxalq müsabiqədə qızıl medala layiq görülüblər

Naxçıvan Dövlət Universitetinin Kimya müəllimliyi ixtisası üzrə III kurs tələbələri Aliyə Cəfərova və Nurtac Rəhimova beynəlxalq səviyyədə uğur əldə ediblər.

Kimya kafedrasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Şamil Mahmudov və Təbii Ehtiyatlar İnstitutunun “Hidrogeologiya və mineral sular” laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın rəhbərliyi ilə hər iki tələbə “Erudit onlayn” Beynəlxalq Kimya Müsabiqəsində iştirak edərək I yerə layiq görülüb, göstərilən yüksək nəticəyə görə hər iki tələbə I dərəcəli diplom və qızıl medalla təltif edilib.

Qeyd edək ki, “Erudit onlayn” Beynəlxalq Kimya Müsabiqəsi müxtəlif ölkələrin tələbələri arasında keçirilən nüfuzlu elmi yarışdır. Müsabiqə iştirakçıların kimya biliklərini və analitik düşünmə bacarıqlarını qiymətləndirməyə yönəlib.



# Xarici diplomlar hansı hallarda tanınmır?



*Son illər xaricdə təhsil almaq istəyən gənclərin sayı sürətlə artıb. Lakin bəzən bu diplomların ölkəmizdə tanınmaması tələbələrin planlarını alt-üst edir. Xaricdə təhsil almaq arzusunda olanlar üçün ən vacib məsələlərdən biri də məhz diplomun nostrifikasiyasıdır. Bəs xarici diplomlar hansı hallarda tanınmır? Bu suala cavab tapmaq üçün təhsil üzrə ekspert Ramin Nurəliyevlə həmsöhbət olduq:*

***– Nostrifikasiya nədir və nə üçün vacibdir?***

– Nostrifikasiya xarici ölkədə əldə edilən diplomun Azərbaycanda rəsmi olaraq tanınması prosesidir. Bu prosesdən sonra sənəd Azərbaycanda keçərli sayılır. Lakin xaricdə təhsil alan şəxs mütləq bizim ölkədə həmin ixtisası nəzərə alaraq oxumalıdır. Bəzi ixtisaslar var ki, bizdə ekvivalenti olmadığı üçün tanınmır. Buna görə də xaricdə təhsil alanlar mütləq bizim ölkədə həmin ixtisasın uyğunluğunu müəyyənləşdirərək təhsil almalıdır. Nostrifikasiya üçün vətəndaş ilk olaraq xaricdə təhsil aldığı diplomu ölkədə apostil etdirərək həmin ölkədən Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət edərək ixtisasın tanınması ilə bağlı şəhadətnamə alır. Daha sonra TKTA-da diplomun tanınması ilə bağlı ərizə tətbiq edilir, sonrakı mərhələ artıq bu qurum tərəfindən müəyyənləşdirilir.

***– Xarici diplomlar hansı hallarda tanınmır?***

– Əvvəl qeyd etdiyimiz kimi ixtisas uyğunluğu olmadığı təqdirdə konkret olaraq həmin diplom tanınmır. Mütləq həmin ixtisas Azərbaycanda tədris olunmalıdır. Tədris müddəti ərəfəsində vətəndaş həmin xarici ölkədə tədris müddətinin yarısından çoxunun tədris prosesinə qoşulmalıdır. Həmçinin distant təhsil də Azərbaycanda tanınmır. Səbəb isə Azərbaycanda distant təhsil formasının icra olunmamasıdır. Hazırda bununla bağlı Ukraynada təhsil alan tələbələrdə ciddi problemlər var. Bəzi vətəndaşlarımız orada distant təhsilə qoşulur, amma unutmamalıdırlar ki, Ukraynada müharibədən sonrakı dövrdə distant təhsillə bağlı heç bir diplom tanınmır. Bu birbaşa TKTA tərəfindən ictimaiyyətə elan edilən qərardır. Digər bir məsələ isə Türkiyədə qiyabi alınan heç bir diplom tanınmır, çünki Türkiyədə təhsil “açıq öyrətim” adlandırılır və bunun Azərbaycanda ekvivalenti yoxdur. Bu Türkiyənin qiyabi təhsil verən həm dövlət, həm də özəl universitetlərinə aiddir. Həmçinin Türkiyənin Anadolu Universitetinin Bakı filialında keçirilən distant təhsil bizdə konkret olaraq tanınmır. Hər hansı bir xarici ölkədə pedaqoji ixtisaslarla bağlı qiyabi və distant təhsil də ölkəmizdə tanınmır.

***– Təhsil müddətinə görə diplom tanınmaya bilərmi?***

– Bəli, hər hansı bir ölkənin tədris müddəti nə qədərdirsə, həmin müddətin yarıdan çoxunu vətəndaş həmin ölkədə olmalı və tədris prosesində mütləq iştirak etməlidir.

Təhsil proqramı Azərbaycan standartlarına uyğun deyilsə, məsələn, bakalavr 3 illik, magistr 1 illikdirsə və bu proqramların məzmunu yetərli deyilsə, nostrifikasiya rədd edilə bilər.

***– Bəs saxta diplomlar necə aşkar olunur?***

– Bu sual günümüzdə ictimaiyyəti maraqlandıran mühüm suallardandır. Vətəndaş bizdə tanınması üçün xarici ölkədən aldığı diplomu mütləq həmin dövlətdə apostil etdirməlidir. Apostil dedikdə isə həmin dövlətin diplomu qanuni olaraq tanıması nəzərdə tutulur.

Təəssüf ki, bəzən insanlar “diplom fabrikləri” kimi tanınan, rəsmi olmayan qurumlardan diplom alırlar. Təhsil Nazirliyi bu cür halları ciddi şəkildə yoxlayır. Əgər sənədin saxta olduğu aşkarlanarsa, heç bir halda tanınmır.

***– Tələbələr diplomun tanınacağına necə əmin ola bilərlər?***

– Ən önəmli məqamlardan biri də budur. İlk növbədə, bunu qeyd edim ki, təhsil eksperti kimi ictimaiyyətə məlumat verməyimizə baxmayaraq, bəzi valideynlər aldanaraq xaricdə təhsillə bağlı müəyyən qədər xərc çəkirlər, lakin diplom tanınmır. Xaricdə təhsil almaq qərarı verməzdən əvvəl mütləq Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) saytına daxil olub, hansı universitetlərin və proqramların tanındığı barədə məlumat əldə etməlidirlər. Vətəndaşlar buradakı sayta girərək Azərbaycan dövləti tərəfindən tanınan ali təhsil müəssisələrini müəyyənləşdirərək gedilən təhsil müəssisəsi hansıların içərisindədirsə, ona uyğun addım atmalıdırlar.

Bəzən belə bir hal da baş verir ki, diplom qismən tanınır. Məsələn, hər hansı bir ixtisasın bizdə ekvivalenti olsa da, təhsil kreditində uyğunsuzluqlar ola bilir. Bu hal daha çox Hüquq ixtisasında baş verir. Hətta son zamanlarda belə bir hal baş verdi ki, xaricdə hüquq təhsili almış 113 nəfərdən yalnız 15-nin diplomu tanındı. Buna səbəb keçilən dərslərin bizdə uyğunluq tapmamasıdır. Bir sözlə, qanunvericiliklər arasında fərq olduğu üçündür. Ona görə diplomlar qismən tanınır. Tam tanınması üçün isə 6 ay ixtisası tədris edən müəssisələrə yönləndirilərək kurs keçirilir və imtahanda iştirak etdikdən sonra tam tanınır.

***– Sonda bu sahədə plan quran gənclərə nə tövsiyə edərdiniz?***

– İlk olaraq qeyd etmək istəyirəm ki, hər hansı bir vətəndaşımız xarici ölkəyə təhsil almağa gedəcəksə, mütləq həmin yeri araşdırmalıdır və ona uyğun addım atmalıdır. Çünki bəzi hallarda valideynlər tanımadığı ali təhsil müəssisələrinə uşaqlarını göndərir, müəyyən qədər xərc çəkir, lakin diplom aldıqdan sonra vəziyyətin gərgin olduğunu görür və məyus olur.

Əgər gənclərimiz yaxşı nailiyyət əldə edibsə, yəni IELTS, olimpiada nəticəsi yaxşıdırsa, dövlət hesabına, ya da hökumətlərarası dövlət proqramı ilə gedə bilər. Bu iki hal təqaüdlə təhsil üçün bizim gənclərə faydalıdır. Əgər nailiyyətləri zəifdirsə, o zaman gedəcəyi müəssisəni TKTA saytından araşdırmalı və ona uyğun hərəkət etməlidir.

Xüsusilə də gənclərimizə və valideynlərimizə hazırda Ukrayna universitetlərinə distant təhsillə bağlı qətiyyən müraciət etməmələrini tövsiyə edirəm. Universitet seçərkən təkcə reytinqə yox, rəsmi statusuna və proqramın tərkibinə də diqqət yetirsinlər. Həmçinin gələcəkdə ölkəyə qayıdıb bu diploma işləməyi düşünürlərsə, mütləq nostrifikasiya şərtlərini əvvəlcədən araşdırsınlar.



**Elnurə CƏFƏROVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***








# Burada gələcəyin Arximedləri, Pifaqorları, Nyutonları yetişir

Bura elmin işığı ilə nura boyanmış bilik məbədidir. Burada hər səhər Günəş yeniliyə can atan, qəlbi öyrənmək eşqiylə döyünən şagirdlərin gözlərində parlayan şəfəqlə doğur. Riyaziyyat, sadəcə, bir fənn deyil bu yerdə, məntiqin dili, düşüncənin açarıdır. Şagirdlər riyazi problemləri həll edərkən, əslində, dünyanı dərk edirlər. Hər bir düstur, hər bir isbat burada bir səyahətə çevrilir. Bir parabolanın qövsü kainatın sonsuzluğunu xatırladır, tənliklər zamanın axınını izah edir. Şagirdlər anladıqca, gördükcə, dərk etdikcə riyaziyyatın həyatın hər yerində olduğunu hiss edirlər – təbiətdə, musiqidə, incəsənətdə, hətta insan ruhunun dərinliklərində. Burada fizika elə bir sehrdir ki, onu anlayan üçün dünya daha anlaşıqlı görünür. Burada hər bir eksperiment yeni bir kəşfə açılan qapıdır. Arximedin qanunu suya düşən bir daşın izahından daha böyük məna ifadə edir, Nyutonun qanunu təkcə cisimlərin hərəkətini deyil, həyatın öz axarını anlamaq üçün bir açar rolunu oynayır. Bu liseydə şagirdlər, sadəcə, nəzəriyyə əzbərləmir, onlar elmi dərindən dərk edirlər. Suyun axınına baxanda hidrodinamikanın qanunlarını görür, göy üzünə baxanda Keplerin planet qanunlarını düşünürlər. Burada elm bir həyat tərzidir. Bəli, haqqında bəhs etdiyimiz təhsil ocağı Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydir. 10 il öncə Naxçıvanda ilk dəfə lisey kimi fəaliyyətə başlayan bu məktəbdə olarkən müəllim və şagird kollektivi ilə yaxından tanış olmaq, onlarla səmimi söhbət etmək imkanı qazandıq.
















Müəllimlərlə görüşümüzdən sonra bir daha əmin olduq ki, bu şərəfli peşənin sahibləri şagirdlərə təkcə bilik vermir, həm də onlarda suallar yaratmağı bacarır. Çünki təhsil sual verməklə başlayır, hər böyük kəşf bir "Niyə?" sualından doğur. Buradakı müəllimlər də elmə sevgi aşılayır, şagirdlərin düşüncələrində bir işıq yandırırlar.

Belə müəllimlərdən biri də biologiya müəllimi, eyni zamanda liseyin təşkilatçısı Xanım Fərəcovadır. VI sinfi bitirib imtahandan uğurlu nəticə toplayaraq bu liseyə qəbul olunan şagirdlər ailələrindən uzaqda, yeni həyata alışmağa çalışdıqları dönəmdə doğma anaların şəfqətinin həsrətini çəkmirlər. Çünki Xanım müəllim onlara ana qədər qayğıkeş yanaşır, mehriban qucaq açır. Xanım müəllim deyir ki, onlar liseydə yatılı qaldıqları üçün onların hər addımının şahidiyik. Sevincli anlarının da, kədərli zamanlarının da… Sağlıqlarında da yanındayıq, xəstələnəndə də… Bəzən gecəni səhərədək onların başının üstündə keşik çəkdiyim vaxtlar da olur. O qədər məsuliyyətdir ki, onların öhdəliklərini öz üzərimizdə hiss etmək… Bir o qədər də sevgi dolu… Hələ məzun olduqları günü deminrəm sizə. Hər birinin uzun müddət yeri görünür, sözün düzü, yoxluqlarına alışmaq çətin olur. Amma hamısı o qədər vəfalıdır ki… Harada olduqlarına baxmayaraq, tez-tez zəng edir, kefimi soruşurlar. Bizi əsla unutmurlar. Onların uğurları mənim üçün ən böyük qürurdur.

Burada olarkən məktəbin direktoru Murad Heydərov bizi liseylə əyani tanış etdi. Liseyin fəaliyyəti barədə danışdıq. O dedi ki, muxtar respublikada dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanmasına artan tələbat nəzərə alınaraq 2015-ci il 14 aprel tarixdə yaradılan Fizika-Riyaziyyat Təmayüllü Lisey Kompleksi 2016-cı ildən istifadəyə verilib. Liseyin maddi-texniki bazası şagirdlərə daha yaxşı təhsil almaq imkanı verir. Burada dərslər yalnız kitab səhifələrində qalmır, laboratoriyalarda, interaktiv tədris mühitində həyata keçirilir. Müasir tədris metodları ilə aparılan dərslər şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir, onlara əzbərləməyi deyil, problemlərin həllinə yanaşmağı öyrədir. Fizika, kimya və biologiyanın laboratoriya şəraitində öyrənilməsi, riyazi problemlərin həllində innovativ yanaşmaların tətbiqi şagirdlərin elmə olan marağını daha da artırır. Hazırda liseydə şagirdlərin təlim-tərbiyəsi ilə 32 müəllim və 15 tərbiyəçi məşğul olur. Liseyin fizika-riyaziyyat təmayüllü olması burada dərs deyən riyaziyyat və fizika müəllimlərinin məsuliyyətini daha da artırır.

Bu liseyin fəaliyyəti təkcə dərslərlə məhdudlaşmır. Burada müxtəlif elmi olimpiadalara, beynəlxalq yarışlara hazırlıq görülür. Şagirdlər öz biliklərini sübut etmək üçün dünyanın dörd bir yanından gələn yaşıdları ilə yarışır, ölkəmizin elm sahəsindəki potensialını dünyaya nümayiş etdirirlər. Bu günədək respublika fənn olimpiadalarında fənlər üzrə 2 qızıl, 4 gümüş, 2 bürünc medal əldə edilib. Şagirdlərimiz SASMO olimpiadasında 2015-ci ildən bu günədək 38 qızıl, 18 gümüş, 27 bürünc medal qazanıb. Sinqapurda keçirilən təlimlərə dəvət alaraq həmin təlimlərdə iştirak ediblər.

Onlardan biri ilə elə sinif otağında tanış oluruq. Hər zaman öz uğurları ilə seçilən X sinif şagirdi Vüsal Məmmədov Azərbaycanda keçirilən Texnofest yarışında qeyri-adi kəşfi ilə III yerin qalibi olub. O deyir: "Liseydə təhsil almaq məsuliyyətlidir, amma bir o qədər də maraqlıdır. Müəllimlərimiz çox bilikli və tələbkardırlar. Fənlər ağır olsa da, öyrənməyi sevirəm. Gələcəkdə yaxşı bir universitetə qəbul olub, sevdiyim sahədə təhsil almaq istəyirəm. Bunun üçün çox çalışmalıyam. Xüsusilə riyaziyyat və informatika fənlərinə marağım var. Bəzən dərs yükü çox olur və vaxtımı düzgün idarə etməkdə çətinlik çəkirəm. Amma müəllimlərimlə yanaşı, tərbiyəçi müəllimlərin də üzərimizdə danılmaz haqqı var. Onlar sabahın dərslərini yerinə yetirməyə, planlı şəkildə hazırlaşmağa kömək edirlər. Məktəbimizdə müxtəlif yarışlar və tədbirlər keçirilir. Mən də informatika yarışlarına qatılıram və proqramlaşdırmanı öyrənirəm. Gələcəkdə texnologiya sahəsində uğurlu bir mütəxəssis olmaq istəyirəm. Yeni proqramlar yaratmaq və faydalı işlər görmək mənim üçün çox önəmlidir".

Murad müəllimlə birlikdə yataqxananın şəraiti ilə də tanış oluruq. O deyir ki, liseyin 273 yerlik yataqxana binası da müasir avadanlıqlarla təmin edilib. Burada şagirdlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Belə ki, yataqxananın hər mərtəbəsinin foyesində yerli televiziya kanalları ilə təchiz olunmuş televizorlar və maraqlı bədii kitablarla təchiz olunmuş kitab rəfləri şagirdlərin istirahət vaxtının səmərəli keçməsi üçün nəzərdə tutulub. Yataqxana binasında 2, 3 və 5 yerlik olmaqla, 87 otaq, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, camaşırxana və hər mərtəbədə istirahət otaqları var. Otaqların hər biri zəruri avadanlıqlarla təchiz olunub. Gündə 3 dəfə müxtəlif çeşidlərlə hazırlanan bir-birindən dadlı və keyfiyyətli yeməklərlə qidalanma, çay və meyvə saatı, tibbi yardım, dərsdən sonra məşğələlər və daha nələr-nələr…

Liseylə tanışlığımızdan sonra bir daha əmin oluruq ki, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, öz uğurları ilə fərqlənməyi bacarıb.

Qazanılan uğurların nəticəsi olaraq aprelin 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə muxtar respublika və ölkə üzrə keçirilən olimpiadaların finalçıları və buraxılış imtahanlarında yüksək nəticə göstərən istedadlı şagirdlərlə görüşüb. Fuad Nəcəfli görüşdə iştirak edən 25 şagirdlə fərdi söhbət edib. Liseyin imkanları ilə tanış olub, sinif otaqlarında və istirahət guşəsində liseyin uğur qazanan şagirdləri ilə görüşüb, yataqxana şəraiti ilə maraqlanıb.

Buradan məzun olaraq müxtəlif nüfuzlu universitetlərdə təhsillərini davam etdirən gənclər mühəndis, proqramçı, alim kimi cəmiyyətə töhfə verir, texnologiyanın, elmin və innovasiyanın inkişafında mühüm rol oynayırlar. Nə bilmək olar, bəlkə də, bu liseyin məzunları gələcəkdə adını tarixə yazmış riyaziyyatçılar, fiziklər, proqramçılar olacaq, dünyaca tanınmış şəxsiyyətlərə çevriləcəklər. Niyə də olmasın?!

Yazımızın sonunda Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin müəllimlərinə səbir, motivasiya və fədakar əməklərinin bəhrəsini görməyi, şagirdlərə isə öyrənmək həvəsi, yüksək nəticələr və parlaq gələcək arzu edirəm. Daim elmin və təhsilin işığında irəliləmək diləyi ilə…

**Gülcamal TAHİROVA**

# Əbədi sənət karvanı

## Vasif Adıgözəlov – 90



*Azərbaycan musiqi tarixində öz yeri, dəst-xəti olan, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri, respublikanın Xalq artisti, professor, dövlət mükafatı laureatı, bəstəkarlarımız arasında yeganə olaraq ölkənin iki ali mükafatına – "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülən Vasif Adıgözəlov milli musiqi mədəniyyətimizə bir-birindən dəyərli sənət nümunələri bəxş etmişdir. Azərbaycan bəstəkarlıq məktəbinin ən yaxşı ənənələri üzərində yüksələn, yaradıcılığında Şərq və Qərb mənəvi dəyərlərinin yüksək bədii-fəlsəfi sintezinə nail olan Vasif Adıgözəlov XX əsr Azərbaycan musiqi mədəniyyətində üç nəsli birləşdirən etibarlı mənəvi körpü idi: xanəndə Zülfü Adıgözəlov, böyük bəstəkar Vasif Adıgözəlov və məşhur dirijor Yalçın Adıgözəlov! Ata, oğul və nəvə! Bu üç böyük sənətkar – bu şərəfli nəsil Azərbaycan musiqi mədəniyyəti tarixində müstəqil bir epoxadır. Yaratdığı ölməz sənət inciləri ilə mənsub olduğu xalqın mədəniyyət tarixinə bənzərsiz töhfələr verən sənətkarın sənət dünyası əbədiyaşardır, bənzərsizdir. Böyük musiqiçilər nəslinin layiqli nümayəndəsi Vasif Adıgözəlov müxtəlif janrlı əsərlərində həmişə zamanın nəbzini duymuşdur. Bəstəkarın xalqımızın muğam xəzinəsinə dərin bələdliyi ilə səciyyələnən yaradıcılığı müasir Azərbaycan musiqi sənətinin parlaq səhifələrindən birini təşkil edir. Vasif Adıgözəlov müasirliklə milliliyin uğurlu sintezinə nail olaraq qiymətli əsərlər yaratmışdır. Bəstəkar öz əsərlərində Azərbaycan xalq musiqisinin bütün janrlarının bədii ifadə vasitələrindən, inkişaf prinsiplərindən məharətlə istifadə etmişdir. Bəstəkarın yaradıcılığı üçün parlaq melodizm və milli muğamlarımızdan qaynaqlanan xüsusiyyətlər xarakterikdir.*

Vasif Adıgözəlov 1935-ci il iyul ayının 28-də Bakıda məşhur muğam ustası Zülfü Adıgözəlovun ailəsində dünyaya göz açıb. İlk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfində alan V.Adıgözəlov, eyni zamanda uşaq yaradıcılığı sinfində məşğul olmuş, bəstəkarlıq sahəsində erkən addımlarını atmışdır. O hələ Bülbül adına Orta İxtisas Musiqi Məktəbində oxuyarkən bir gənc bəstəkar kimi özünü sınaqdan keçirmişdir. 1952-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının təşkil etdiyi gənc bəstəkar-tələbələrin baxışında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tələbələri ilə yanaşı, onun da müxtəlif alətlər üçün yazılmış maraqlı və ifadəli əsərləri ifa olunur. Bu əsərlərin fortepiano partiyasını məharətlə və peşəkarlıqla Vasif özü ifa edir.

Təhsilini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirərək o, konservatoriyanı iki ixtisas – bəstəkarlıq üzrə dahi bəstəkar, professor Qara Qarayevin sinfini, fortepiano üzrə isə professor Simuzər Quliyevanın sinfini əla qiymətlərlə bitirmişdir.

Vasif Adıgözəlovun yaradıcılığı milli musiqi mədəniyyətimizdə xüsusi rola və əhəmiyyətə malikdir. Bəstəkarın əsərləri nəinki ölkəmizdə, hətta dünyanın bir çox yerlərində – Almaniya, Bolqarıstan, Çexiya, Meksika, Kosta-Riko, Venesuela, Kuba, Türkiyə, İran və keçmiş SSRİ respublikalarında səsləndirilmişdir. Bu gün də Vasif Adıgözəlovun əsərləri müxtəlif beynəlxalq musiqi festivallarında məşhur dirijorların təfsirində səslənir, görkəmli kollektivlərin və ifaçıların repertuarına daxil edilir, respublikamızın musiqi təhsili ocaqlarında tədris olunur, disklərə yazılır.

Dahi Q.Qarayev məktəbinin zəngin ənənələrini və novatorluq prinsiplərini ən yüksək səviyyədə inkişaf etdirərək V.Adıgözəlov öz yolunu müəyyənləşdirmiş, musiqidə özünəməxsus dəst-xətini tapmışdır. V.Adıgözəlov sənət aləminə 1956-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının 1-ci Qurultayında səslənmiş "Simfonik poema" və "Sonata"sı ilə gəlib. Bir qədər sonra M.F.Axundzadənin "Hacı Qara" komediyası əsasında Ramiz Mustafayevlə birlikdə "Xəsis" operettasını yazıb.

Bəstəkarın yaradıcılığı çox geniş və rəngarəngdir. Onun müxtəlif musiqi janrlarında yazdığı yüksəksəviyyəli sənət əsərləri geniş dinləyici kütləsinin rəğbətini qazanıb. 70-ci illərin əvvəllərində artıq məşhur bəstəkar V. Adıgözəlov "Nənəmin şahlıq quşu" və "Ayrılaq, evlənərik" operettalarını yaradır. Bəstəkar 2 operanın – "Ölülər" və "Natəvan", 6 musiqili komediyanın, o cümlədən "Aldın payını, çağır dayını", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915", "Qəm karvanı" oratoriyalarının, 4 simfoniyanın, simfonik poemaların – "Qəhrəmanlıq poeması", "Afrika mübarizə edir", "Mərhələlər", "Bayram uvertürası"nın, piano ilə simfonik orkestr üçün dörd konsert, violino ilə simfonik orkestr üçün konsert və violonçel ilə simfonik orkestr üçün konsert, daha sonra vokal-simfonik poemaların, simfonik orkestrin müşayiəti ilə dörd royal üçün yazılmış "Poema", "Segah" muğam-simfoniyasının, 5 instrumental konsertin, çoxlu sayda kamera-instrumental əsərlərin, 100-ə qədər mahnı və romanın, dram tamaşalarına və kinofilmlərə yazılmış musiqinin müəllifidir.

Azərbaycanın tarixi taleyi ağır sınaqla üz-üzə gələndə sovet imperiyasının və onun totalitar ideologiyasının çökməsindən istifadə edən düşmənlər torpağımıza göz dikəndə böyük bəstəkar, əslən Qarabağdan olan V.Adıgözəlov vətən taleyi mövzusuna müraciət edərək "Odlar yurdu" və "Qarabağ şikəstəsi" oratoriyalarını yaratdı.

Bəstəkarın müxtəlif janrlarl əhatə edən zəngin və əhatəli yaradıcılığının çox hissəsini fortepiano üçün musiqi təşkil etsə də, o ən mürəkkəb janr olan operaya iki dəfə müraciət edərək yüksək bədii keyfiyyətə malik musiqili səhnə əsərləri yaratmağa nail olmuşdur. Əgər o, 1963-cü ildə görkəmli Azərbaycan dramaturqu C.Məmmədquluzadənin eyniadlı əsəri əsasında ilk operası "Ölülər"i yazmışdırsa, 40 ildən sonra yenidən bu janra müraciət edərək Azərbaycan xalqının böyük şairəsi Xurşidbanu Natəvanın 170 illiyinə həsr edilmiş ikinci operası "Natəvan"ı ərsəyə gətirmişdir.

Bəstəkar hələ tələbəlik illərindən başlayaraq fortepiano üçün prelüdlərdən tutmuş ən irihəcmli instrumental əsər – piano və orkestr üçün 3 "Konsert"in, skripka və orkestr üçün, violonçel və orkestr üçün konsertin müəllifidir. Bu gün bəstəkarın həm "24 prelüd" piano silsiləsi, həm də konsertləri respublika pianoçularının repertuarında özünə möhkəm yer tutur və musiqi tədrisi sistemində geniş istifadə edilir.

V.Adıgözəlovun romans və mahnı yaradıcılığı uzun illərdir ki, milli mədəniyyətimizin ən gözəl nailiyyətləri xəzinəsində mühüm yer tutur. Bəstəkarın mahnı və romans yaradıcılığı nəinki Azərbaycanda, hətta sərhədlərimizdən uzaqlarda da geniş şöhrət tapmışdır. Əlbəttə, bir çox romans və mahnıların dillər əzbəri olması gözəl sənətkarlarımız Rəşid Behbudovun, Mirzə Babayevin, Şövkət Ələkbərovanın, Fidan və Xuraman Qasımovaların, "Qaya" vokal-instrumental ansamblının yüksək ifaçılıq məharəti, incə interpretasiyası ilə bağlıdır. Bəstəkarın romans və mahnıları görkəmli şairlərimizin sözlərinə yazılmışdır. R.Rzanın sözlərinə "Yeddi çinar", Natəvanın sözlərinə "Qərənfil", Ə.Kürçaylının sözlərinə bəstələnmiş "Ay olmaq istəyirəm" əsərləri dediklərimizə nümunədir.

İrihəcmli monumental əsərlərlə yanaşı, bəstəkarın mahnıları da öz səmimi, ecazkar melodiyası ilə qəlbləri fəth etmişdir. Onun dillər əzbəri olan "Qərənfil", "Bakı", "Xoşum gəlir", "Naz-naz", "Şuşa laylası", "Ana" kimi mahnıları insanın ülvi hisslərini riqqətə gətirən təkrarolunmaz sənət inciləridir. Bəstəkarın bir çox kinofilmlərə yazılmış musiqiləri xalqımızın dərin rəğbətini qazanmışdır.

Vasif Adıgözəlov görkəmli ictimai və musiqi xadimi kimi respublikanın mədəni həyatında fəal iştirak etmiş, milli musiqimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Onun Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində baş redaktor, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında baş musiqi redaktoru, Azərbaycan Bəstəkarlar İttifaqında məsul katib, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında bədii rəhbər, A.Zeynallı adına Bakı Musiqi Texnikumunda direktor, Bakı Musiqi Akademiyasında Xor dirijorluğu kafedrasının professoru və müdiri, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi kimi çalışaraq böyük təşkilatçılıq qabiliyyəti göstərməklə yanaşı, öz səmimi və mehriban xasiyyəti ilə ictimaiyyətin dərin rəğbətini qazanmış, geniş ictimai-pedaqoji fəaliyyətini dövlətimiz yüksək qiymətləndirmişdir.

Öz novator yaradıcılığı ilə XX əsr Azərbaycan professional musiqisinin yeni zirvələrini müəyyənləşdirən V.Adıgözəlovun 3 noyabr 1995-ci ildə keçirilən yubileyi əsl musiqi hadisəsinə çevrildi. Bu zaman o, Ümummilli Lider Heydər Əliyevin Sərəncamına əsasən "Şöhrət ordeni" ilə təltif olundu.

Azərbaycan muğamlarının mahir bilicisi, görkəmli xanəndə Zülfü Adıgözəlovun ailəsində doğulub boya-başa çatmış Vasif Adıgözəlovun xalq musiqisi mühitində tərbiyə olunması onun yaradıcılığının milli zəmində formalaşmasına bilavasitə təsir göstərmişdir. Müasir bəstəkarlıq texnikasının incəliklərini mənimsəməklə pianoçuluq məharətinə yiyələnməklə yanaşı, V.Adıgözəlov xalq musiqisi qaynaqlarından bəhrələnərək öz zəngin təxəyyülünün məhsulu olan orijinal əsərlər yaradıb. Vasif Adıgözəlov məşhur Adıgözəlovlar nəslinə mənsub, Üzeyir Hacıbəyli ənənələrini davam etdirən, Qara Qarayev məktəbinə sadiq bir sənətkar olmaqla yanaşı, qayğıkeş və tələbkar ata idi. Unudulmaz bəstəkarımızın oğlu respublikamızın tanınmış dirijoru, Əməkdar incəsənət xadimi Yalçın Adıgözəlov bu musiqiçilər nəslinin layiqli davamçısıdır.

Belə zəngin ömür yolu keçmiş, gözəl sənət əsərləri yaratmış, böyük musiqiçilər nəsli yetişdirmiş, geniş təşkilatçılıq fəaliyyəti göstərmiş bir insan olmaqla yanaşı, V.Adıgözəlov öz səmimiliyi və alicənablığı ilə xalqımızın qəlbində əbədi ehtiram hissi yaratmışdır. V.Adıgözəlov Azərbaycan musiqi mədəniyyətimizin tarixində heç kəsə bənzəməyən, öz fərdi üslubu ilə seçilən və Qərb musiqisinin imkanlarından, janr və formalarından bacarıqla istifadə edən qüdrətli sənətkar idi.

Görkəmli bəstəkar 2006-cı il sentyabrın 16-da dünyasını dəyişib və Fəxri xiyabanda dəfn olunub. Vasif Adıgözəlovun ecazkar musiqisi zaman-zaman səslənəcək və "Vasif Adıgözəlov" adlı "sənət karvanı" daim irəliləyəcək.

**Sevinc MUSAYEVA**
*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Musiqi təlimi kafedrasının müdiri*

## Uşaq İncəsənət Festivalının 1-ci seçim turu başladı



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Uşaq İncəsənət Festivalı – 2025" çərçivəsində birinci seçim turuna Naxçıvanda start verilib.

Əvvəlcə münsiflər heyəti və festival iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət edərək muzeyin ekspozisiyası ilə tanış olublar.

Daha sonra Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində fortepiano nominasiyası üzrə seçim turuna başlanılıb.

Qeyd edək ki, festival istedadlı uşaqları kəşf etmək, onların yaradıcılığını ön plana çıxarmaq, milli mədəniyyətə olan sevgini gücləndirərək zəngin mədəni irsimizi gələcək nəslə ötürmək məqsədilə təşkil olunub.



Bu möhtəşəm və unudulmaz festival hər bir istedadlı uşağa öz işığını parlatmaq, səhnədə yüksəlmək və böyük tamaşaçı auditoriyasının alqışlarını qazanmaq fürsəti verəcək.

Nəzərinizə çatdıraq ki, festivalda iştirak üçün Naxçıvan Muxtar Respublikası üzrə 1000 nəfərdən çox namizəd qeydə alınıb. Onlardan 663 nəfəri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən musiqi təhsili müəssisələrinin şagirdidir.

# Sorağı əsrlərin o tayından gələn kənd

***Dahilər və qəhrəmanlar yurdu***

Qədim Kəngərli yurdu. Tarixin o üzündən bəri boylanan, inkişaf edib müasirləşdikcə qədimliyini, ululuğunu qoruyub saxlayan yurd yerimiz. Yolboyu tarixi mədəniyyətinə, mədəniyyəti ədəbiyyatına arxa olub milli dəyərlərimizi, adət-ənənələrimizi qərinələrin saxlancına ərmağan edən bu doğma diyarımın tarixindən əzəmət, mərdlik, mədəniyyətindən zəhmətkeşlik, ədəbiyyatından cəfakeşlik alan insanları barədə düşünürəm. Xalqımıza görkəmli şəxsiyyətlər bəxş edən, hər küncündən tarix boylanan Kəngərlilər elində axarlı-baxarlı sinəsi yaralı Arazın sahilində dayanan Şahtaxtı kəndinin yetirmələri gəlir ağlıma... İctimai xadim Məhəmməd ağa Şahtaxtlı, polkovnik Əbülfət ağa Şahtaxtinski, akademik Zərifə xanım Əliyeva, Xalq rəssamı Elmira Şahtaxtinskaya, Xalq yazıçısı Hüseyn İbrahimov, professor Tamerlan Əliyev kimi neçə-neçə unudulmaz insan yetişib bu qədim türk elində.

***Burada tarix danışır, tarix dil açır***

Bir çox yurd yeri kimi qədim Şahtaxtının da adı ilə bağlı xalq arasında dolaşan bir çox rəvayət var. Bir rəvayət Şah İsmayılın ordusunun burada qələbə qazandıqdan sonra Təbrizə gedərək 14 yaşlı İsmayılı taxta çıxarması ilə, digər rəvayətdə isə Şah Abbasa bu yerdə taxt hədiyyə edilməsi ilə bağlıdır. Məşhur rus tədqiqatçısı Smirnov isə 1934-cü ildə "Naxçıvan diyarının tarixi və etnoqrafiyası" kitabında Şahtaxtı adının vaxtilə Şahtaxtı kəndində məskunlaşan Nemətullahi təriqətinə məxsus dərvişlərə gedib çıxdığını, kəndin adının da məhz özünü şah elan edən dərvişin təkyəsinin burada yerləşməsi ilə bağlı olduğu, təriqətin yaradıcısı sufi Əmir Nurəddin Nemətullah ibn Mirabdullanın şəcərəsinin Həzrəti Əlinin oğlu İmam Hüseynin nəvəsi Məhəmməd Baqirə gedib çıxdığı bildirilir. Yayılmış məlumatlara görə, Nemətullahi təriqətinin banisi Nemətullah və ya onun "Şah" ləqəbli davamçılarından biri Naxçıvana məhz Araz çayının indiki Şahtaxtı kəndi ərazisindən keçərək gəlir və "İydəli pir" adlanan ərazidə məskunlaşaraq xanəgahını qurur. Hətta bəzi mənbələrdə deyilir ki, əvvəllər iydəlik olan ərazinin sonralar pirə çevrilərək İydəli pir, yaşayış məskəninin Şahtaxtı adlanması da məhz burada sufi şahın xanəgahının qurulması ilə bağlı olub.

1936-cı ildə arxeoloq Əli Ələsgərov, 1979-1989-cu illərdə arxeoloq Qəhrəman Ağayev tərəfindən aparılan tədqiqatlar zamanı ovçuluğa, balıqçılığa və sənətkarlığa aid çoxlu materialların tapılması nəticəsində ehtimal olunub ki, bu kənd qədim insanların məskunlaşdığı ilk ərazilərdən olub. Şahtaxtının yaşlı sakinlərinin dediyinə görə, vaxtilə bu kənd başdan-başa gözəl bağlarla örtülü olduğundan "bağı-cənnət" adlandırılıb. Bağı-cənnətin ən gözəl guşəsi "İydəli pir" adlanan ərazi olub. Pirin ərazisindən keçən arxa isə "Şah arxı" deyirmişlər. Kənddən 2 kilometr aralıda yerləşən orta əsrlər dövrünə aid İydəli pir yerli əhalinin inancları ilə bağlı abidədir. Pirin adı ilə bağlı olan əfsanə və rəvayətlərin birində deyilir ki, şahtaxtılı "İydə çiçəyi" adlı bir qızı zorla varlı, çirkin, qoca bir kişiyə ərə vermək istəyirlər. İydə çiçəyi gecə bədirlənmiş ay işığında gizlin bağçaya gələrək Yaradana üz tutub imdad istəyərkən iydə ağacına çevrilir. Həmin vaxtdan ərazi müqəddəs yer olur, iydənin toxumları torpağa tökülərək göyərir və iydəli sahə – bağ yaranır.

Tarixi mənbələrə nəzər yetirəndə görürük ki, 60-dan artıq nəslin nümayəndələrinin yaşadığı Şahtaxtıda ilk Seyidlər sülaləsinin əsasını qoyan şəxs isə Mir Abdulla ağa olub. Deyilənlərə görə, Şahtaxtıdakı tayfa başçılarından ikisinin, Şaxtaxtinskilərin əcdadı İsa Soltanla böyük seyid Mir Abdulla ağa arasında həm də sıx dostluq münasibətləri olub. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra hər iki şəxsin nəinki Şahtaxtıda, ümumiyyətlə, Mərənd, Maku, İrəvan, Naxçıvan bölgəsindəki yüksək nüfuzu çar Rusiyası tərəfindən nəzərə alınıb, kəndin siyasi idarəçiliyinə İsa Sultan, dini işlərə isə Mir Abdulla ağa baxıb.

***Yaşı yüzü ötən təhsil ocağı***

Bu qədim kənd haqqında məlumat almaq üçün tarixi mənbələrə nəzər salanda görürük ki, Şahtaxtıda ilk məktəbin fəaliyyətə başlaması Məhəmməd ağa Şahtaxtlının təşəbbüsü ilə olub. Bunun üçün o öz qohumu Əbülfət ağa Şaxtaxtinskiyə müraciət edir və Şahtaxtıda ikisinifli məktəb açılır. Bu məktəb Naxçıvanın az sayda olan məktəblərindən idi. 1893-cü ildə Məhəmməd ağa Şahtaxtılı bu kənddə rus-tatar məktəbi açır. Həmin məktəbin ilk direktoru isə Əbülqasım Şahtaxtinski olur. Böyük ədib Mirzə Cəlilin "Sahibi-mənsəb, ziyalılar yurdu" adlandırdığı Şahtaxtı kəndinin bu gün adını fəxrlə sadaladığımız ziyalılarının yetişməsində məhz bu təhsil ocağının rolu böyük olmuşdur. Bu gün müasirliyi ilə gözoxşayan bu təhsil ocağı böyük alim, gözəl ana, Tanrının işıqlı bəndəsi akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Burada təhsil alan uşaqlar qədim təhsil ocağının adı tarixə qürurla həkk olunan görkəmli şəxslərin həyat yolundan dərs alıb daha da əzmlə çalışır. Kimisi Zərifə xanım kimi həkim olmaq yolunda irəliləyir, kimisi arzusu ilə yaşayır. Biri alim, digəri hərbçi, biri diplomat olmaq üçün gecə-gündüz zəhmət çəkir.







***Şahtaxtinskilər – qədim kəndin şöhrətli nəsli***

XIX-XX əsrlərdə elmin bir çox sahələrində böyük nailiyyətlər əldə edən alimlərin əksəriyyəti Şahtaxtinskilər nəslindən olub. Kənddə ömürlərini elmə həsr edən bu şöhrətli nəslin adını əbədiləşdirən, fəaliyyətlərini təbliğ edən bir muzey də var. Şahtaxtinskilər Muzeyini ziyarət edən hər kəs şöhrəti ölkəmizi aşıb keçən nəslin nümayəndələri haqqında məlumat alır. Burada olan hər bir qonaq bu şöhrətli nəslin nümayəndələrinin Azərbaycan xalqlı üçün gördüyü əvəzedilməz xidmətlər barədə öyrənir. Məhəmməd ağa Şahtaxtılı Avropada təhsil alan ilk azərbaycanlı olmaqla bərabər, BDU-nun ilk azərbaycanlı professoru kimi də adını tarixə yazdırıb. Azərbaycanın ilk jurnalistlərindən biri İsa Sultan Şaxtaxtinski "Əkinçi" qəzeti ilə əməkdaşlıq edib. XX əsrin ilk anadilli qəzeti olan "Şərqi-rus" qəzetinin yaradıcısı Məhəmməd ağa Şaxtaxtılı olub. Moskva və Qars müqavilələrinin bağlanmasında böyük xidmətləri olan görkəmli dövlət xadimi və böyük diplomat Behbud ağa Şahtaxtinski, tibb elmləri doktoru və professor adını alan ilk azərbaycanlı qadın Adilə Şahtaxtinskaya, xaricdə təhsil almış ilk azərbaycanlı qadın Leyla, adlarını fəxrlə sadaladığımız bu insanlar bu kəndin yetirdiyi şəxsiyyətlərdən, sadəcə, bir neçəsidir.

***Tarixi kənd müasirliyi ilə göz oxşayır***

Kəndin ən uca yerində dayanıb ətəyindən Araz keçən qədim yurdu seyr edirəm. Kəndin qədimliyini əks etdirən Şahtaxtı hamamı, Şahtaxtı yaşayış yeri, Şahtaxtı nekropolu, Govurqala, kəndə gələn dümdüz asfalt yol, çiçək açıb, yaşıllaşan ağaclar, əkin-bacada alın tərini torpağa qatan zəhmətkeş insanlar, binası ali təhsil ocağına bənzəyən tam orta məktəbdən xoş ovqatla çıxıb evinə tələsən uşaqlar, Arazın sahilində sərhədlərimizi qoruyan Vətən keşikçiləri, kənd məzarlığında başı üstə üçrəngli, ay-ulduzlu qələbə bayrağı dalğalanan şəhid məzarı...

Əlbəttə ki, bu qədim və şöhrətli kəndi bir neçə sözlə ifadə etmək mümkün deyil, amma Şahtaxtını seyr edəndə tarixi, Vətən sevgisini, müasirliyi bir yerdə görənlərin yaddaşında bir fikir formalaşır: "Vətən sevgisi olan yerdə hər zərrə torpaq çiçək açar".

**Ramiyə ƏKBƏROVA**






### Beynəlxalq Kosmik stansiyadan 3 nəfər yerə qayıdıb

Beynəlxalq Kosmik Stansiyada (BKS) çalışan 2 kosmonavt və bir astronavt yerə qayıdıb.

Bu barədə "Roskosmos" məlumat yayıb. Bildirilir ki, göyərtəsində rus kosmonavtlar Aleksey Ovçinin, İvan Vaqner və NASA-nın astronavtı Donald Petitin olduğu "Soyuz MS-26" kosmik gəmisi Qazaxıstana uğurlu eniş edib. Yerin orbitinə daxilolma və eniş normal olub.

Ekipaj BKS-də 11 sentyabr 2024-cü ildən işləyirdi.

### Xərçəng hüceyrələrinin aşkarlanmasının qeyri-adi üsulu tapılıb

Tokio Universitetinin alimləri xərçəng hüceyrələrini sağlam hüceyrələrdən ayırmağın yeni sadə üsulunu aşkar ediblər. Araşdırmalar göstərib ki, hüceyrələrin hərəkət trayektoriyasına əsasən onların bədxassəli dəyişikliklərə məruz qalıb-qalmadığını 94%-ə qədər dəqiqliklə müəyyən etmək mümkündür.

Alimlər adi mikroskop altında rəngləmə tələb etməyən fazalı-kontrast mikroskopiya üsulu ilə xərçəngli fibrosarkoma (bir növ birləşdirici toxuma şişi) və normal fibroblastların hərəkət davranışlarını müqayisə ediblər.

Xüsusi alqoritmin köməyi ilə sağlam və şiş hüceyrələrinin hərəkətinə aid əsas parametrləri təhlil etmək mümkün olub: sürət, trayektoriyanın dolanbaclığı və dönmə tezliyi.

Məlum olub ki, xərçəng hüceyrələri fərqli şəkildə hərəkət edir, belə ki, onlar daha tez-tez istiqamət dəyişir və hərəkətləri daha az hamar olur. Məhz bu xüsusiyyətlər sistemə bədxassəli hüceyrələri yüksək dəqiqliklə "tanımaq" imkanı verir.

Tədqiqatçılar qeyd ediblər ki, yeni yanaşma xərçəngin diaqnozunu daha sadə, sürətli və əlçatan edir. Bu üsulu baha avadanlıq olmadan əksər laboratoriyalarda tətbiq etmək mümkündür. Bundan əlavə, bu metod hüceyrə hərəkətliliyi ilə bağlı proseslərin, məsələn, toxumaların regenerasiyası, yaraların sağalması və orqanizmin infeksiyalara reaksiyası kimi halların öyrənilməsi üçün yeni imkanlar açır.

### Səudiyyə Ərəbistanı yeni nəhəng "Əbədi Bağ" layihəsini elan edib

Səudiyyə Ərəbistanının rəsmiləri Qırmızı dəniz sahilində daha bir obyektin tikintisinə başlandığını bildiriblər. Məqsəd neftlə zəngin səhra krallığını turistlər üçün cənnətə çevirməkdir.

Britaniyanın "Foster + Partners" studiyası tərəfindən layihələndirilmiş Laheq kurortu, bol yaşıllığa görə "Əbədi Bağ" adını alıb və ölkənin qərbində yerləşən 90 adadan ibarət arxipelaqı əhatə edəcək. 400 hektarlıq sahəni əhatə edən kurortun mərkəzində diametri 800 metr olan süni dairəvi konstruksiya qurulacaq. Burada lüks apartamentlər, mehmanxanalar, ticarət mərkəzləri, əyləncə zonaları, qolf meydançaları və yaxtalar üçün limanlar inşa ediləcək.

Laheq kurortunun 2028-ci ildə istifadəyə verilməsi planlaşdırılır.



# Biz çobanıq, dağdı, daşdı yerimiz

## Yastığı təpələr, yorğanı buludlar olur çobanların

Yazın gəlişi ilə torpaqdan boylanan yarpızın, nanənin ətrinin ətrafa yayıldığı günlərdən birində yaşıllığa bürünən Nəhəcir kəndində qış yuxusundan ayılan çöllərdə otlayan qoyun sürüsünə tamaşa edəndə insan özünü nağıllar aləmində hiss edir. Belinə dumandan kəmər bağlamış, zirvəsi göylərə uzanan dağların ətəyinə qar dənələri kimi səpələnən qoyun-quzular təbiət incisi olan bu yerlərin gözəl görüntüsünü daha da xoş edir. Yamacların xoş ətri ətrafa yayılan bol alağından yeyib bulaqların, çeşmələrin saf suyundan içən, təmiz havasında bəslənən bu heyvanların əti, südü, qatığı, qaymağı, bulaması, dələməsi, şoru, pendiri damaqların dadıdır.

Nəhəcir kəndində olarkən rastlaşdığımız mənzərə belə idi – qoyunlar dərədə otlayırdı, çoban isə təpənin başında yapıncısını yerə sərib oturmuşdu. Yaxınlaşıb tanış oluruq. Öyrənirik ki, Babək rayonunun Nəhəcir kəndindən olan Nail Qurbanov 10 ildən artıqdır, gününün çoxunu dağda, yamacda qoyun-quzuya baxmaqla keçirir. Söhbətləşirik:

"Qış boyu tövlələrdə saxlanılan qoyun-quzu təbiətin qoynuna ayaq açandan bəri yastığı təpələr, yorğanı buludlar olur çobanların. Qoyun-quzunun çöl vaxtı gəlib çatdımı, onlar bunu "hiss edirlər", onların tövlədə mələşmə səsləri kəsilmir. Bu vaxt ot yeni cücərsə də, dünyagörmüşlərimiz deyərdilər ki, qoyun-quzunun ruzisi qışda qarın altında qalır, yaz açılanda onlar həmin otları axtarıb, tapıb qidalanırlar. Qoyun-quzu, keçi evin bərəkəti, həyat-bacanın yaraşığıdır. Belə ruzi-bərəkət mənbəyi olan heyvanların saxlanmasında, cins tərkibinin yaxşılaşdırılmasında daim sürünün yanında olan çoban əməyinin əvəzi yoxdur. Çobanlıq qədim peşədir. Hər bir peşə kimi, çobanlığın da özünəməxsus sirli-soraqlı dünyası vardır. Elin varını, bərəkətini artıran bu peşənin mahir ustaları min illərdir, dədə-babadan qalma bu sənəti yaşadır".

Müsahibim deyir ki, təcrübəli çobanlar obaşdan ta günorta vaxtınadək sürünü otararkən ona su verməzlər. Qoyunun duyuq düşmədiyi yerdə topa-topa döyülü duz komaları qoyarlar. Heyvan duza çatıb, "duzunu alar". Su isinməmiş sərin sudan doyunca içər. Odur ki, otdan doymaz. Yedikcə kökələr, gümrah olar. Çobanlar təkcə qoyun-quzunun, keçinin "dilini" bilmək kifayət etmir, gərək torpağın, bitkilərin də dilini biləsən. Ata-babadan öyrənmişik qoyun-keçinin də, torpağın da dilini.

Çobanlar həm də bu dağların, dərələrin keşikçisi olurlar. Günəşdən əvvəl oyanıb gün dağların arxasında mürgüləməyə çəkilənə kimi Vətənin yamyaşıl çöllərində təmiz havasını udub, saf bulaqların suyunu içib zəhmətlə dolanır, öz gün-güzəranlarını təmin edirlər.

**Foto: Əsəd SƏFƏROV**

## Mədəniyyət xəbərləri



Naxçıvanda aprel ayında bir sıra tamaşaların nümayişi və sərgilərin təşkili nəzərdə tutulub. Belə ki, C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı aprelin 26-da saat 12$^{00}$-da "Cırtdan nağıllar aləmində" və saat 19$^{00}$-da M. F. Axundzadənin "Lənkəran xanının vəzirinin sərgüzəştləri" adlı səhnə əsərləri tamaşaçılara təqdim edəcək.

Aprelin 28-i saat 15$^{00}$-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda, birliyin üzvü Səbrəli Nəbiyevin "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Vəhdət" adlı fərdi yaradıcılıq sərgisi açılacaqdır.

Aprelin 29-u saat 15$^{00}$-da Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri Culfa Rayon Mədəniyyət Sarayında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konsert proqramı ilə çıxış edəcək. Konsertin bədii rəhbəri Prezident mükafatçısı, dirijor Elvin Əliyarovdur.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da öz tamaşaçılarını sevindirməyi unutmayıb. Teatrın səhnələşdirdiyi C. Məmmədquluzadənin "Çay dəsgahı" adlı əsərinin rejissoru və bədii rəhbəri Səyyad Məmmədov, rəssamı Rafael Qədimov, musiqi tərtibatçısı Əli Məmmədovdur. Qeyd edək ki, teatrda Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş "Arşın mal alan" əsərinin səhnə hazırlığı gedir. Tamaşa uzun illərdir ki, istifadə edilməyən marionet üslubunda kuklalarla olacaq.

## Naxçıvan idmançısından ard-arda 3 qızıl medal



Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Hövsan Olimpiya İdman Kompleksində MMA, pankration, qrappling (qrapplinq-gi) idman növləri üzrə yeniyetmə, gənclər və böyüklər arasında Azərbaycan birinciliyi və çempionatı keçirilib. 4 gün davam edən yarışda 60 klubdan 600-ə yaxın idmançı iştirak edib.

Yarışa Naxçıvandan məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə "Turan" Döyüş Klubunun 8 idmançısı qatılıb. Təmsilçilərimiz 7-si qızıl, 4-ü gümüş, 2-si bürünc olmaqla, ümumilikdə, 13 medal qazanıblar. Qızıl medallardan 4-ü pankrationda, 2-si qrapplinqdə, 1-i MMA-də əldə olunub.

Klubun idmançılarından ən yaxşı nəticə Nurəddin Əliyevə məxsusdur. Belə ki, 42 kq çəki dərəcəsində çıxış edən 16 yaşlı idmançı hər üç idman növündə həmyaşıdlarını üstələyərək 3 qızıl medal qazanmağa müvəffəq olub. Rəhim Quluzadə (38 kq) pankration və qrapplinqdə, Əsgər Heydərovla (66 kq) Əbülfəz Cəfərov (47 kq) isə təkcə pankrationda çempionluq sevinci yaşayıblar. İbrahim Əliyev və Ravil Alməmmədov gümüş, Oğuz Məmmədli isə bürünc medal mükafatçısı olub.

## Ləman Bağırova ölkə liqasına uğurla başlayıb




Abşeron Olimpiya İdman Kompleksində U-14 yeniyetmələr arasında cüdo üzrə liqa yarışının I turu start götürüb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, turnirdə 101 klub və idman cəmiyyətindən 545 cüdoçu (449 oğlan, 96 qız) mübarizəyə qoşulub.

Naxçıvan Muxtar Respublikasından yarışa məşqçi Orxan Quliyevin rəhbərliyi ilə 3 idmançı qatılıb. Onlardan yalnız biri mükafatçılar sırasına düşməyi bacarıb. Belə ki, Ləman Bağırova 36 kq çəki dərəcəsində gümüş medala layiq görülüb. İdmançı 5 görüş keçirib və yalnız final görüşündə məğlubiyyətlə üzləşib. Ləman bu nəticə ilə liqada yüksək reytinq qazanma yolunda önəmli başlanğıca nail olub.

Qeyd edək ki, cari ildə U-14 Liqa yarışının dörd turunun keçirilməsi planlaşdırılır. Bu yarışlar nəticəsində idmançıların reytinq cədvəli formalaşacaq.

Elan




### İtmişdir

Şərur rayonu, Kürçülü kəndində yaşamış Cəfərov Azər Nəzəralı oğluna məxsus JN-196 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Abbasova Sevinc Zakir qızının adına olan Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğanlı kəndində yaşamış Əliyev Əli Müseyib oğluna məxsus JN-17 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Arbatan kənd sakini Rzayeva Nailə Mirağa qızına məxsus JN-145$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-27 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq kəndində yaşamış Həsənov Məmməd Abbas oğlunun adına olan JN-836 nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babayev Əli Ramazan oğlunun adına olan A007196 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kəndində Ələsgərov İslam Aslan oğlunun adına olan 84$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Abbasov Malik Xudabağır oğlunun adına olan JN-632 nömrəli, 10311018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Gülüstan kənd sakini Tağıyev Məmmədrza Səfər oğlunun adına olan 34$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xətai kənd sakini Cəfərov Arif Salman oğluna məxsus JN-110$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Əsgərov Həbib İbrahim oğluna məxsus JN-413$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Cəfərova Rima Əşrəf qızının adına olan JN-1093 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atatürk küçəsi, ev 66-da yaşayan Sadıqov Nurəddin Sənan oğlunun adına olan evin 3767 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənd sakini Fərəcov Fəxrəddin Gülməmməd oğlunun adına olan JN-34$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kənd sakini Həmzəyeva Raziyə Hüseyn qızına məxsus JN-199$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 122

Nömrəyə məsul: Nail Əsgərov, Cavanşir Bağırlı, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.